**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**Bəxtiyar Hüseyn oğlu Əhmədov**

# ARGENTİNA CƏMİYYƏTİNDƏ DİNİ FAKTOR: TARİX VƏ MÜASİRLİK

**İxtisas: Regionşünaslıq [Cənubi Amerika üzrə]**

**MAGİSTRLİK DİSSERTASİYASI**

**Elmi rəhbər: İ.ü.f.d. Məmmədov Ceyhun Valeh oğlu**

**BAKI – 2022**

# M Ü N D Ə R İ C A T

**GİRİŞ............................................................................................................3**

**I FƏSİL ARGENTİNA CƏMİYYƏTİNİN FORMALAŞMASINDA DİN AMİLİ ...........................................................................................................................7**

1.1.Argentinada xristianlığın yayılması tarixi və xüsusiyyətləri....................................7

1.2.Katolisizm Argentinada aparıcı xristian məzhəbi kimi..........................................18

1.3.Protestantlığın Argentina cəmiyyətində rolu.........................................................26

**II FƏSİL ARGENTİNADA SİYASİ-SOSİAL PROSESLƏRİN DİN, DÖVLƏT, CƏMİYYƏT MÜNASİBƏTLƏRİNƏ TƏSİRİ.....................................................36**

2.1. Argentinada dövlət-din münasibətləri...............................................................36

2.2. Müasir dövrdə Argentinada konfessiyalararası dialoq.........................................42

2.3. Argentinada dini azlıqlar və onların cəmiyyətə inteqrasiyası...............................52

**NƏTİCƏ...........................................................................................................65**

**İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI...................................................68**

# GİRİŞ

Argentina Latın Amerikasında inkişaf etmiş dövlətlərdən biridir, eyni zamanda iqtisadi potensialına görə də Latın Amerikasının üç ən böyük ölkələrindən hesab olunur. Ölkə özünün tarixi, mədəni irsi, etnik xüsusiyyətləri, təbii-iqtisadi imkanları və s. baxımından həm Latın Amerikasında, həm də dünyada özünə məxsus yer tutur.

Argentina böyük və əhalinin seyrək olduğu bir ərazidə meydana gəlmişdi. Dövlət qurucuları ölkənin qapılarının hər kəsə açıq olduğunu bildirmiş, miqrasiya prosesinə kömək etmişlər. Dini azadlıq da immiqrantların təşviq edilməsi üçün olan səylərin vacib bir hissəsi idi. Ölkədə ispan ənənənəsi mövcud olduğundan, heç də təccüblü deyil ki, burada katolik məzhəbinin üzvləri hegemonluq təşkil edirdilər. Amma Argentina müstəqilliyinin əvvəlindən başlayaraq başqa dinləri də özündə cəmləşdirmişdi. Bu onun görünüşünü daha da zənginləşdirmişdi. Miqrasiyanın artmasına görə, Argentinada dinin müxtəlifliyi kimi, həm də çeşidliliyi də çoxalmışdır. Belə ki, 20-ci əsrdə Pentekostal və Evanqelikal kilsələr Argentinada peyda olmuşdu, sayları xeyli artmışdı. Adventislər, Yehovanın şahidləri, həmçinin İsa Məsihin kilsəsi kimi ölkədə təsis edilmiş bu kilsələrin əksəriyyəti Amerika mənşəli idi. Buddist icmaların qrupları, müxtəlif mənşəli digər qruplar ölkədə inkişaf etməyə başladı. Daha sonralar, Spiritizm, Masonluq kimi qeyri-dini olan əqidələr ölkədə inkişaf etmişdir.

Argentinada xristianlıq avropalılar tərəfindən yayılmağa başlanmış və xristianlığın yayılmasında katolik kilsəsi tərəfindən maliyyələşdirilən missionerlər mühüm rol oynamışdılar. Hazırda Əhalinin 92%-nin katolik, 2%-nin protestant, 2%-inin yəhudi və 4%-nin başqa dinlərin oluduğu bildirilir. Bu onunla bağlı idi ki, Argentinaya gələn miqrantların təxminən 80%-ə qədəri ispanlar və italyanlar idi, sonrakı yerləri isə fransızlar,yunanlar,ingilislər, yəhudilər və başqa millətin nümayəndələri tuturdu.

Əsas dini inanc olan katolik dini 20-ci əsr ərzində dövlətin nəzarəti altında qalmışdı. Məsələn, dövlət kilsə orqanlarındakı seçkilərə, ölkədəki din xadimlərinə, həmçinin Papa ilə əlaqə yaradan qurumlara ciddi nəzarət edirdi. Ölkədə mövcud olan belə vəziyyət müxtəlif münaqişələrə səbəb oldu. Belə ki, Argentina Roma ilə əlaqələrini

müəyyən dövr ərzində kəsmişdi. 1966-cı ildə danışıqlardan sonra Argentina dövləti və müqəddəs taxt arasında himayə sistemini sonlandıran saziş imzalandı. Bundan sonra Papa yepiskopları öz iradəsi ilə təyin edir, hökumətə də bu barədə məlumat verirdi. Digər dini rütbələrə, kişişliyə isə qəbul olunma tam azad idi, eyni zamanda bu proses həm də dövlət tərəfindən asanlaşdırılırdı. Bura dünyanın müxtəlif yerlərindən olan Papa və katoliklər ilə Argentinanın katolikləri arasındakı əlaqələr də daxil idi.

**Mövzunun aktuallığı:** Argentina xalqının, müasir mədəniyyət və incəsənətinin təşəkkülü, dinin formalaşması və inkişafı həm avropa miqrantlarının ,həm də yerli hindu əhalinin iştirakı ilə baş vermişdi. Argentina tarixinin uzun dövrü ərzində böyük bir xristian ölkəsi olmuşdur. Ölkənin ictimai, siyasi həyatında din, əsasən də xristianlıq dininin katolik məzhəbi mühüm rol oynayır. Roma-Katokliyi mədəni olaraq çox geniş yayılmışdır. Argentina cəmiyyətinin müasir ictimasi-siyasi mənzərənin, mədəniyyətlərarası münasibətlərin formalaşmasında dinin rolunun böyük olması, onun tədqiq edilməsini həm maraqlı, həm də zəruri edir.

**Mövzunun öyrənilmə dərəcəsi.** Dissertasiya işində Argentinada Xristianlığın 16-cı əsrdən başlayaraq yayılması geniş tədqiq olunub. Argentinanın müxtəlif ərazilərində xristianlığın katolik qolunun yayılmasını və yerli əhali tərəfindən qəbul olunmasını təhlil edilərək onun ölkədə aparıcı mövqeyini əsaslandırmağa çalışılmışdır. Həmçinin, ölkədə katolizmdən fərqli olaraq protestantlığın 18-ci əsrdə meydana gəlməsi və protestantlığın müxtəlif qollarının yayılması məsələlərinə toxunulmuşdur. Eyni zamanda, Argentinada dövlət və din münasibətlərinin təhlilinə də geniş yer verilmiş, hazırda ölkədə mövcud olan müxtəlif dinlər və konfessiyalar arasında münasibətlər də tədqiq olunmuşdur.

Daha çox ispan və ingilis, qismən də, rus ədəbiyyatlarında Argentina cəmiyyətində din faktorunun araşdırılması məsələlərinə geniş yer verilmişdir. Müəlliflərimizin Argentina cəmiyyətində din amilinin araşdırılması ilə bağlı məsələləri geniş şəkildə əhatə edən dərslikləri yoxdur, onların bəziləri öz dərsliklərində Argentinanın coğrafiyası, etnoqrafiyası, mədəniyyəti kimi bir sıra amillərə yer vermişdir, amma Argentina cəmiyyətində din faktoru müstəqil tədqiqat predmeti olmamışdır. Buna görə,

tədqiqat prosesində daha çox mövzu ilə bağlı ispan, ingilis və rus dillərində olan ədəbiyyat, məqalə, rəsmi elektron məlumatlardan geniş şəkildə istifadə edilmişdir.

Azərbaycan müəlliflərindən G.R Ağakişiyeva və A.Şahmuradov Argentinanın coğrafiyası və etnoqrafiyası haqqında kifayət qədər məlumat verilmişdir. Encyclopedia.com və Православная энциклопедия ensiklopediyalarından, həmçinin P. Siwakın "500 años de evangelización americana" və E. Dusselin "The Church in Latin America 1492-1992" kitablarında Argentinada xristianlığın tarixi geniş tədqiq edilmişdir. J.Stewartın "Catholicism in Argentina" və D. Mauronun "Catolicismo y secularización en Argentina y España" əsərlərində Argentinada aparıcı xristian məzhəbi olan Katolisizm və onun cəmiyyətdə yeri araşdırılmışdır. Argentinada dövlət-din münasibətləri F. Arlettazın "The Legal Status of Religious Groups in Argentina", N. Padillanın "Religion and the Secular State in Argentina" və L. Edward Shuckın "Church and State in Argentina" adlı məqalələrində nəzər yetirilişmişdir. Müasir dövrdə Argentinada konfessiyalararası dialoq məsələsinə isə C. Epelmanın "Interreligious coexistence is possible and Argentina is proof of this" əsərində toxunulmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Argentinanın ictimai, siyasi və mədəni həyatında din faktorunun rolunu müəyyənləşdirməkdən ibarətdir. Bu baxımdan tədqiqat zamanı qarşıya aşağıdakı vəzifələr qoyulmuşdu:

- Argentinada xristianlığın yayılmasını tarixi perspektivdən nəzərdən keçirilməsi
- Argentinada dövlət və din münasibətlərinin tarixi baxımdan araşdırılması
- Argentinanın din siyasətində katolik dinin yerinin təhlil edilməsi
- Argentinada dini azlıqlar və onların cəmiyyətə inteqrasiyası məsələlərini araşdırmaq

**Tədqiqat işinin metodoloji əsasları.** Tədqiqat işinin nəzəri metodoloji əsaslarının formalaşdırılmasında tədqiqat işinin predmetinə aid mənbələr üzərində tarixi-müqayisəli yanaşma metodu istifadə olunmuşdur. Argentinada dövlət və din xüsusiyyətlərini bu sahəyə aid rəsmi mənbələrin, məlumatların təhlili, şərh olunması metodu ilə tədqiq etməyə çalışılmışdır.

**Dissertasiyanın elmi yeniliyi:** Tədqiqat işinin elmi yeniliyi kimi din faktorunun Argentina cəmiyyətinin formalaşmasındaki rolu müəyyən edilmiş, həmçinin ölkədə siyasi-sosial proseslərin din, dövlət və cəmiyyət münasibətlərinə təsiri təhlil olunmuş və müasir dövrdə konfessiyalararası dialoq araşdırılmışdır.

**Dissertasiyanın elmi və praktik əhəmiyyəti.** Dissertasiya işinin əsas müddəalarından gələcəkdə bu mövzuda elmi tədqiqat işinin aparılmasında, dərs vəsaitlərinin hazırlanmasında, ümumiləşdirilmiş əsərlərin hazırlanmasında, universitetlərdə mühazirələrin oxunmasında, seminar və məşğələlərin keçirilməsində istifadə edilə bilər.

**İşin aprobasiyası:** Tədqiqat işinin əsas müddəaları və nəticəsi haqqında 1 rəy alınmışdır. Ümumi tədqiqatla bağlı bir məqalə və 1 tezis yazılmışdır. Həmçinin, tədqiqat işi "Gənc tədqiqatçıların elmi əsərləri" jurnalında dərc olunacaqdır.

**Tədqiqat işinin strukturu**. Dissertasiya işi giriş, iki fəsil, altı paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqat işinin giriş hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi, məqsəd və vəzifələri, elmi yeniliyi və İşin aprobasiyası göstərilmişdir. Birinci fəsildə Argentina cəmiyyətinin formalaşmasında din amili təhlil olunmuşdur. İkinci fəsildə isə qarşıya qoyulan məqsəd ölkədə siyasi-sosial proseslərin din, dövlət və cəmiyyət münasibətlərinə təsirini araşdırmaq olub. Nəticə hissəsində isə tədqiqat işi zamanı aparılan araşdırmalarla əldə olunmuş əsas nəticələr sistemli şəkildə təqdim edilmişdir. Tədqiqat zamanı istifadə olunan ədəbiyyat siyahısı da dissertasiya işinə əlavə olunub.

# ARGENTİNA CƏMİYYƏTİNDƏ DİNİ FAKTOR: TARİX VƏ MÜASİRLİK

## I FƏSİL ARGENTİNA CƏMİYYƏTİNİN FORMALAŞMASINDA DİN AMİLİ

### 1.1. Argentinada xristianlığın yayılması tarixi və xüsusiyyətləri

Argentina tarixi boyunca din, ictimai və siyasi həyatda əhəmiyyətli bir rol oynamışdır. Burada xüsusilə xristian dini geniş yayılmışdır. Argentina tarixinin əhəmiyyətli hissəsində Roma Katolik Kilsəsi dövlət üzərində əhəmiyyətli təsir və gücə malik olmuşdur. Bunun başlıca səbəbi isə yeni fəth edilmiş ərazilərdə ispan müstəmləkəçiliyi ilə bağlıdır.

Latın Amerikasının müstəmləkə dövründə kilsənin statusu 1494-cü ildə Papa VI Aleksandrın İspaniya və Portuqaliyanın Yeni dünyada katolik monarxlarına verdiyi kilsə üzərində nəzarət (patronaj) hüququ ilə müəyyən edilmişdi, çünki Romadan uzaq məsafədə yerləşdiyi və vəsait çatışmazlığı səbəbindən Roma Katolik Kilsəsi dünyəvi gücə arxalanmadan yeni kəşf edilmiş torpaqların yerli əhalisi arasında "dini təbliğatı" apara bilməzdi [56]. Həmin il İspaniya və Portuqaliya arasında Tordesiyas müqaviləsi bağlandı. Bu müqavilənin əsas müddəası Yeni Dünya torpaqlarının iki ölkə arasında bölünməsi idi [56].

Argentinada xristianlığın tarixi İspaniyanın Cənubi Amerika materikini müstəmləkələşməsi ilə başlayır. 1519-cu ildə bir neçə keşiş Ferdinand Magellanın Argentinaya ekspedisiyasının bir hissəsi olaraq San Xulian Pataqoniya sahilinə gəlib çıxdı. Yerli əhalinin torpaqlarının kəşfi və zəbt edilməsi əsasən La Plata çayı boyunca baş vermişdir[52]. Argentinada avropalıların ilk məskunlaşması 1536-cı ilin fevralında Pedro de Mendozanın 1500 nəfərlik ekspedisiyasının gəlişi ilə başladı və Buenos Ayres

şəhərinin əsası qoyuldu. Müstəmləkəçilərin Argentina ərazisinə ilk ekspedisiyalarının tərkibində katolik keşişləri də var idi [56]. Burada, üç kilsə və müvəqqəti ibadətgah tikildi. Keşişlərdən biri - Xuan Qabriel de Lezkano yerli əhali üçün məktəb açaraq, onlara katexizm, tərənnüm, oxu və yazmağı öyrədir, eyni zamanda onlara xristian dəyərlərini aşılamağa çalışırdı. Buenos-Ayresdə ilk yaşayış məntəqəsi tezliklə yerli əhali - hinduların hücumu nəticəsində boşaldıldı, sakinləri Korpus Kristi (1536) və Asunsyon, Paraqvay (1537) kimi digər, daha yeni qurulmuş şəhərlərə köçdülər. İllər sonra Çilidən olan mühacirlər Mendoza (1560) və San Juan (1561) şəhərlərini qurdular; Perudan olan digərləri 1565-ci ildə Tukumanı, 1579-cu ildə Kordovanı, 1578-ci ildə Santa Fe şəhərlərinin əsasını qoydular və 1583-cü ildə Buenos Ayresi bərpa etdilər[14]. Bütün bu yaşayış məntəqələrində və hərbi ekspedisiyaların əksəriyyətində əvvəlcə üstünlük təşkil edən fransiskanlar və dominikanlar adlı qruplara aid olan adi və ya nisbətən sekulyar fikirli ruhanilər iştirak edirdi. İspanlar üçün o zamanlar müstəmləkə torpaqlarında şəhər qurmaq - keşişə həvalə edilmiş kabildo, kilsə və məktəb qurmaq demək idi. Konkistadorlardan bəzilərinin vərdişləri əxlaq normalarına uyğun olmasa da, onlar əsasən dərin və köklü inanclı, dini əməllərə sadiq insanlar idi. Bəzi keşişlər, İspaniyada keçirilən inkvizisiya siyasətindən qaçaraq azadlıq axtarışında idilər, bu səbəbdən Rio de la Plataya köç etmişdilər [14].

Konkista dövründə, üç əsr ərzində ispan missionerləri bugünkü Argentina ərazisində yaşayan yerli əhaliyə İncili təbliğ edirdilər və şəhərlərin salındığı vaxtda kilsələr və monastırların əsası qoyuldu. Yerli əhalinin katolikliyi qəbul edilməsinə əsasən Fransiskan, Dominikan və Yezuit təriqətinə məxsus olan keşişlər rol oynamışdı [56]. İlkin müstəmləkə dövründə Argentina ərazisi Peru vitse-krallığına aid edildiyinə görə, Kusko yepiskopluğunun (Peru) bir hissəsi idi [54].1547-ci ildə Papa III Pavelin başçılığı altında yezuitlər Asunsyon şəhərində Rio de la Plata yeparxiyasını yaratdı və bu yeparxiya İspaniyanın La Plata vitse-krallığını (müasir Argentina, Uruqvay, Paraqvaydan şimalda Paranapanema çayına qədər və indiki Braziliyanın cənub hissəsini) əhatə edirdi. Yeparxiyaya xidmət edən ilk yepiskop fransiskan təriqətindən olan Pedro Fernandez de la Torre (1555-73) idi. Əhalinin geniş miqyaslı

evangelizasiyası və eyni zamanda Argentinada ilk müstəqil yepiskopluğun təşkil edilməsi 1570-ci illərdə başladı [43].1570-ci ildə ölkənin mərkəzi və şimal-qərb hissələri də daxil olmaqla, Tukuman Yeparxiyasının yaradılması və Fransisko de Viktoriyanın yepiskop təyin edilməsi ilə effektiv yepiskopluq fəaliyyətə başladı. Viktoriya merkantilist müəssisələrinin olması və Portuqaliyaya meyilli münasibəti səbəbindən çətinliklərlə üzləşsə də, Argentina ərazisinin dini təşkilatlanmasında böyük rol oynamışdır. Həm o, həm də varisi Fernando Trejo y Sanabria (1595-1614) yepiskop Viktoriyanın gətirdiyi dini ordenlərdən çox istifadə edirdilər [13].

Növbəti yepiskop təyin edilən Sanabria öz yeparxiya kilsəsini Katolik kilsəsinin 19-cu ekumenik məclisi olan Trent Şurasının qərarlarına uyğun olaraq təşkil etdi. Ruhanilərini daha yaxşı yetişdirmək üçün o, Santa Katalina Kolleci Seminariyasını qurdu və Kordova şəhərinə köçdü. Daha sonra o, 1613-cü ildə Kordovada San Xavier Konviktorio Kollecini təsis etdi və 1622-ci ildə Kordova Universitetinin yaradılması istiqamətində ilk addımlarını atdı. [14]. Yezuitlər tərəfindən həyata keçirilən bu ilkin addım, 17-ci əsrin sonunda, İqnasio Duarte y Quiros tərəfindən bir çox keşişlik peşəsini inkişaf etdirən Montserrat Milli Kollecinin təməli ilə tamamlandı [13].

Növbəti 400 il ərzində Argentinada yeparxiyaların sayında davamlı artım oldu ki, bu da katolikliyin yavaş, lakin daimi irəliləyişinin əksi və regionun yerli xalqlarının öz dinlərindən katolikliyə keçməsi prosesinin sübutudur. Alonso de Buenaventura və Luis de Bolanyos kimi fransiskanlar (1578), Alonso Barzana və Pedro de Anasko (1586) kimi yezuitlər öz işlərinə mütəşəkkil və sistemli şəkildə yanaşırdılar. [14]. Yezuit reduksiyaları (məskənləri) 17-ci əsrin əvvəllərində Yezuit Ordeni tərəfindən Cənubi Amerikada, əsasən də Argentina, Paraqvay, və Braziliyanın Rio Grande do Sul bölgəsində qurulan, yerli əhali üçün bir yaşayış məntəqəsi növü idi. 18-ci əsrdə bir sıra Avropa ölkələrində Yezuit ordeninin qadağan edilməsi ilə sona çatmışdı [9]. Argentinada ispan administrasiyasının olmadığı ərazidə yezuit ordeni xüsusi rol oynamışdı. 1609-cu ildə İspaniya monarxının icazəsi ilə Quarani Yezuit Respublikasını yaratdılar [56]. Hakimiyyətin idarəedilməsi ordenin üzvləri tərəfindən həyata keçirilirdi və burada qurulan yerlilərin həyat tərzi ispan qubernatorlarının və

onların ətrafının digər bölgələrdə qurduqlarından yaxşı mənada fərqlənirdi [56]. Yezuitlər reduksiyalarda yerli xalqların muxtar qalacaqları və ispan müstəmləkəçiləri və hökmranlığından təcrid olunmuş bir "dövlət daxilində dövlət" yaratmağa cəhd etdilər. Yerliləri reduksiyalara cəlb edən əsas amil onların köləlikdən və enkomiyendaların məcburi əməyindən qorunmaları idi [9]. Bu səbəbdən, sonradan Yezuit Reduksiyası "sosialist teokratiya" təcrübəsi və ya "xeyirxah müstəmləkəçiliyin" nadir nümunəsi kimi göstərilirdi [29]. Quarani icmalarını Avropa mədəniyyəti və iqtisadi bacarıqları ilə tanış edən yezuitlər ciddi nizam-intizam yaratdılar və 18-ci əsrdə 300 minə yaxın hindu onların nəzarəti altında idi [14]. 1759-cu ildə Portuqaliya kralı və 1767-ci ildə İspaniya kralı III Karl yezuitləri öz dövlətlərindən və müstəmləkələrdən qovmaq barədə qərarlar qəbul etdilər. Buna əsas səbəb yezuit ordeninin əldə etdiyi iqtisadi və siyasi güc, müstəqillik, saray hərc-mərcliyinə dərindən qarışması idi. Orden dövlətin xeyrinə heç bir vergiyə tabe deyildi, təkcə dünyəvi hakimiyyətə deyil, yepiskopların hakimiyyətinə də tabe olmurdu, orden yalnız generalının və papanın gücünü tanıyırdı. 1768-ci ildə yezuit missiyaları mülki idarəçiliyə verildi [54]. 1767-ci ildə yezuitləin qovulmasından sonra 30 reduksiyada fransiskanlar, dominikanlar və mersedarlar təriqətindən olanlar yerləşdirildi. Bu məskənlər 1810-1818-ci illər arasında paraqvaylılar, uruqvaylılar və braziliyalılar tərəfindən baş verən döyüşlərdə dağıdıldı. Digər Yezuit reduksiyaları da yezuitlərin qovulması əmrindən sonra mövcudluğunu dayandırdı. 18-ci əsrin sonunda Fransiskan təriqətinin üzvləri və 1876-cı ildən sonra Salesians təriqətinin üzvləri yenidən ölkənin ucqar şimalında və ucqar cənubunda əhalinin evangilizasiyası səylərinə başladılar. Onların sayı təxminən 30 minə yaxın idi. Kordova Universitetində və Monserrat Milli Kollecində yezuit professorları 1767-ci ildən sonra qovulsalar da, katolik doktrinası heç bir dəyər itirmədi və İspaniyada üstünlük təşkil edən liberal ideyalar ona təsir etmədi [14].

Maarifçilik dövrünün daha radikal ideyaları bölgədə geniş yayılmadığından, İspaniya ilə əlaqələri kəsənlər və 1810-cu il inqilabının liderləri tamamilə katolik və ortodoks təriqətlərinə aid olanlar idi. Üsyanın lideri Kornelio Saavedra, inqilabi

hökumətin məruzəçilərindən biri olan keşiş Manuel Alberti kimi hərtərəfli və hətta dindar bir katolik idi. Müharibə və sonrakı dövlət quruculuğu dövlət və kilsə arasında münasibətlərin yenidən nəzərdən keçirilməsinə gətirib çıxardı və ruhanilər və din xadimləri arasında parçalanmaya səbəb oldu [56]. Buenos-Ayres, Kordova və Salta yepiskopları separatçı hərəkata rəğbət bəsləməsələr də, ruhanilərin və dindarların çoxu yeni siyasi rejimi dəstəklədilər. Bəzi ruhanilər isə, əsasən mənşəcə ispan olan yepiskoplar müstəmləkə rejiminin müdafiəsinə çıxdılar. Digərləri isə, əsasən də kreollar, milli azadlıq hərəkatına qoşularaq hərəkatın rəhbərlərinin təşkil etdiyi “Vətənpərvər Xunta"ya üzv olaraq, xalq məclislərində iştirak edirdilər [14]. Mersedarian məzhəbinin üzvlərinin demək olar ki, hamısı separatçı olsa da, əksər fransiskalılar inqilabın əleyhinə idilər.

1813-cü ildə Konstitusiya Assambleyası Argentina kilsəsini və monastır ordenlərini Rio de la Plata Birləşmiş Əyalətləri hüdudlarından kənarda kilsə hakimiyyətlərindən müstəqil mövqeyə qoyan qərarlar qəbul etdi, yəni İspaniya və Vatikanla əlaqələri pozuldu. İnkvizisiya tribunalının ləğvi də daxil olmaqla, bir sıra digər məhdudlaşdırıcı tədbirlər də qəbul edildi [56].

1816-cı ilin 9 iyulunda Cənubi Amerika Birləşmiş Əyalətlərinin (indiki Argentina, Uruqvay, Boliviyanın bir hissəsi) müstəqilliyini elan bəyannamə Tukuman Konqresində imzalandı. [5]. Bu bəyannaməni imzalayan 29 nümayəndədən 11-i keşiş idi. Müstəqillik elan edilərkən, La Plata üçün hökumət forması mübahisə mövzusu idi. Müasir Argentinanın ərazisi, paytaxtı Buenos-Ayres Rio de la Platanın İspan vitse-krallığının bir hissəsi idi [14]. Müasir Uruqvay, Paraqvay və Boliviya da vitse-krallığın bir hissəsi idi və Cənubi Amerika Birləşmiş Əyalətləri muxtariyyət üçün mübarizə aparmağa başladılar [14]. Buenos Ayres bütün əyalətlərə nəzarəti əlində saxlamaq istəyirdi və bu vəziyyət 1818-ci ildən 1820-ci ilə qədər davam edən vətəndaş müharibəsinə səbəb oldu. 1818-ci ildə Argentina vətəndaşlığını qəbul etməyən ruhanilərə ölkəni tərk etmək əmri verildi [56]. 1819-cu ildə Argentinanın ilk konstitusiyası (o vaxtlar hələ də Rio-de-la-Plata Birləşmiş Əyalətləri) ölkədə ənənəvi dini təmsil edən katolikliyi dövlət dini kimi təsdiqlədi, həmçinin ispan tacından miras

qalan kilsəyə himayədarlıq hüququ verdi. Bundan əlavə senatda kilsə təmsilçiliyinə icazə verildi, arxiyepiskoplar və yepiskoplar mülki məhkəmə hüququnun subyektləri oldular [56].

1822-ci ildə Argentinada köklü islahatlar aparıldı və kilsə ilə bağlı islahatların əsas təşəbbüskarı hökumətin baş naziri Bernardino Rivadavia idi [56]. Fransada gördüklərindən ilhamlanan Rivadavia, avstriyalı II İosif və tarixçi Febroniusun ideyaları, xüsusən də milli və əyalət hökumətlərinin hər birinin İspaniyadan miras qaldıqları himayəçilik konsepsiyasına əsaslandığına inanırdı. Kilsə və mülki işləri qanuniləşdirmək və xristianlığın təbliğatını tamamilə dayandırmaq istəyən Rivadavia "Ruhanilərin İslahatı" həyata keçirməyə cəhd etdi. 1824-cü ildə, Papanın nümayəndəsi Çiliyə gedərkən Buenos-Ayresdən keçən zaman Rivadavia ona Konfirmasiya Müqəddəs Mərasimini idarə etməyə icazə verməkdən imtina edərək, ona mümkün qədər tez şəhəri tərk etməyi əmr etdi [14]. Kilsə ondalığı (kilsənin əhalidən topladığı gəlirin onda biridir) ləğv edildi və kilsəyə dövlət büdcəsindən təminata zəmanət verildi. Dinlərə qarşı intizam tədbirləri görüldü: bəzilərinin fəaliyyəti qadağan edildi, əmlakları müsadirə edildi, digərlərinin isə əmlakı dövlət nəzarətinə götürüldü. Beləliklə, müstəqil dövlət kilsəni öz maraqlarına xidmət etməyə çalışırdı [56]. Bununla belə, növbəti il Rivadavia İngiltərə ilə müqavilə bağladı və protestantlığa rəsmi icazə verildi, nəticədə bütün dinlərə bərabər münasibət göstərildi [14].

1829-cu ildə qısamüddətli hökumətlərdən biri zamanı Buenos-Ayres qubernatoru Xuan Xose Viamonte Roma ilə 1810-cu ildən bəri dayandırılmış əlaqələrin bərpasına təşəbbüs göstərdi. Papa VII Pius Mariano Medranonu Buenos-Ayres yepiskopu təyin etdi və 1832-ci ilə qədər xidmət etdiyi yepiskopluq dövründə o, Argentina xalqı tərəfindən məmnuniyyət ilə qarşılassa da, bəzi hüquqşünasların və bir çox kahinin böyük müqaviməti ilə üzləşdi [14]. Həmçinin Manuel Vicente Mazanın hakimiyyətə gəlməsi ilə 1834-cü ildə dövlət və kilsə arasında himayə hüququ baxımından münasibətlər üçün əsas olan "Anlaşma Memorandumu" müzakirə edildi [56]. Onun əsas prinsipləri 14 bənddə öz əksini tapmışdır və prinsiplər arasında ensiklikaları(Papanın göndərdiyi məktublar) senzura etmək, kilsə vəzifələrinə

namizədlər irəli sürmək və kilsə rayonlarının sərhədlərini müəyyən etmək hüququ kimi bəndlər var idi [41]. Yepiskoplar milli himayədarlığı tanımaq və hökumətə sədaqət üçün and içməli idilər [56] Nəticə olaraq qeyd etmək olar ki, Argentinanın müstəqillinin ilk dövrlərində, əsasən də Rivadavianın hakimiyyətə gəlməsindən başlayaraq dövlət kilsəyə qarşı islahatlar apararaq mübarizə aparmağa başladı.

1835-1852-ci illərdə Prezident Xuan Manuel Rosas bölgəyə sülh və asayiş gətirərək, bütün Argentinanı idarə etdi [14]. Güclü himayəçilik tərəfdarı olaraq, o, açıq şəkildə kilsə işlərinə qarışdı; kilsəni ruhani və apostol işində dəstəkləməsinə baxmayaraq, siyasətə həddən artıq qarışdığını düşündüyü keşişləri və dindarları ölkədən qovdu [14]. Katolikliyin əvvəllər dövlət dini kimi tanınmasından fərqli olaraq, 1853-cü ildə qəbul edilmiş konstitusiya katolik kilsəsini dövlət dəstəyilə təmin etdi [56]. Vətəndaşlara sərbəst dini etiqad hüququ verilməsinə baxmayaraq, ancaq prezident mütləq katolik olmalı idi [43]. Konstitusiya həmçinin himayəçilik hüququnu təsbit etdi. Vatikan himayəçilik prinsipini tanımaqdan imtina etdi və buna görə də Vatikan ilə konkordat bağlanmadı

1853-1880-ci illər arasında katoliklik ziyalılar arasında nəzərəçarpacaq dərəcədə zəiflədi [14]. 19-cu əsrin son onillikləri cəmiyyətin dünyəviləşməsi istiqamətində liberal meyllər gücləndi, bu katolik olmayanlar üçün dini azadlığın genişləndirilməsi və katolikliyə sosial yönüm verilməsi kimi məsələlərdə özünü göstərdi. Bu tendensiyalar Argentinada XX əsrin əvvəllərində, 6 milyon əhalinin 40%-nin mühacir olduğu dövrdə daha da inkişaf etmişdir. Eyni zamanda, masonluq getdikcə daha çox yayılmışdı, onun ardıcılları zəifləməkdə olan Argentina kilsəsini məhv etməyin vaxtının gəldiyinə inanırdılar [14]. Argentinaya yeni gələn miqrantlar, bir qayda olaraq, savadlı və yüksək peşəkarlığa malik insanlar idilər və qısa zamanda ictimai əhəmiyyət kəsb etməyə başladılar. Onların arasında Avropada yaranmış sosialist və anarxist ideyaların və dini azadlığın tərəfdarları da kifayət qədər çox idi. Beləliklə, 1853-cü il Konstitusiyası 1880-ci ilə qədər Katolik kilsəsi üzərində geniş təsiri oldu. Bəziləri onun maddələrindəki xüsusi müddəaların, digərləri isə səhv şərhinin nəticəsi idi. Tukumanlı olduğu üçün Buenos-Ayresdə nifrət edilən prezident Xulio A.Roka

masonların açıq şəkildə kilsəyə hücum etməsinə icazə verdi və beləliklə, bütün səlahiyyət müddəti (1880-86) dövründə kilsəyə qarşı mübarizəyə başladı [14]. Parlamentdə və parlamentdən kənar mübarizə təhsil və vətəndaş nikahı uğrunda gedirdi, kilsənin düşmənləri hər iki tərəfdən qalib gəlirdilər Beləki, 1888-ci ildə Senat dini tolerantlıq ideyasını təbliğ edən bir sıra qanunlar qəbul etdi: məktəblərdə katolik katexizminin tədrisinə əhəmiyyətli məhdudiyyətlər qoyuldu, vətəndaş nikahı (dini mərasim olmadan) ondan əvvəl toy etmək qadağan edilən yeganə qanuni nikah kimi tanındı, lakin liberalların boşanmanı qanuniləşdirmək cəhdləri uğursuz oldu. Kilsə qəbiristanlıqlarına dövlət nəzarəti quruldu, mülki qəbiristanlıqlar yaradıldı [56]. Bu cür liberal və sekulyar meyllərə qarşı çıxmaq üçün əvvəllər liberal olan katolik Xose Manuel Estrada “Unión Católica”-nı yaratdı və bu 1884-cü ildə toplanan Birinci Argentina Katolik Assambleyasının əsas hərəkətedici qüvvəsi oldu. O, həmçinin "Estrada La Unión" qəzetini təsis etdi və [14]. Həmçinin Argentina Latın Amerikasında yeganə ölkə idi ki, burada Papa XIII Leonun katolikliyin sosial doktrinasının əsasını qoyan “Rerum novarum” (1891) əsərinin nəşrinə icazə verilmişdir və buradan gizli şəkildə qitənin bütün ölkələrinə yayıldı.

Argentina 20-ci əsrə qədəm qoyarkən, 1880-ci ildə liberalların başlatdığı de-xristianlaşma prosesinin sekulyarizm ilə tamamlana biləcəyinə inanırdı. Argentina Konqresində hər şeyin bu prosesə doğru getdiyi görünsə də, Tukumandan olan gənc deputat Ernesto E. Padillanın mübarizəsi sekulyarizmin uğursuzluğuna səbəb oldu. Padilla Alman Katolik Kişi Rahiblər Konqreqasiyasının üzvü Federiko Qrote və başqalarının rəhbərlik etdiyi katolik dirçəliş hərəkatının bir hissəsi idi. Qrotun işi dövrün tələblərinə uyğun idi: O, işçi qruplarını yaratdı, katolik "El Pueblo" qəzetini təsis etdi və Emilio Lamarka, Miqel de Andrea, Alexandro Bunqe, Qustavo X.Franseski və Xose M. Samperio da daxil olmaqla yeni nəsil şəxsləri ilhamlandırdı.

1934-cü il XXXII Beynəlxalq Yevxaristiya Konqresi Argentinanın Buenos-Ayres şəhərində gələcək Papa XII Pius Eugenio Pacelli-nin iştirakı ilə keçirildi və bu Latın Amerikasında keçirilən ilk belə tədbir idi [13]. Tədbirdə qatılan əhalinin sayına görə, əvvəllər heç vaxt görülməmiş, bu tədbir o günə qədər ölkədəki ən mühüm kütləvi

hadisə və bəzi tarixçilər üçün Argentinada bu günə qədər baş vermiş ən böyük səfərbərlik idi. Bu tədbirdə demək olar ki, bütün xalq iştirak etdi və əhalinin əhəmiyyətli hissəsi iman gətirərək Tanrıya qayıtdı [14]1934-cü ildən əsrin ortalarına qədər olan dövr Argentina katolikliyinin yenidən dirçəlişi, kilsənin yeni həyatının başladığı, yeparxiyaların və çağırışların artdığı və yeni kilsələrin tikildiyi bir mərhələ idi [13]1943-cü ildə general Pedro Pablo Ramirezin hərbi hökuməti bütün dövlət məktəblərində din və ya əxlaq üzrə seçmə kursların açılması əmrini verdikdən sonra, 92% dini seçmişdi. Buenos-Ayres kimi kosmopolit şəhərlərdə belə əksəriyyət katolik olaraq qaldı [14]. Bu da onu göstərir ki, 19-uncu əsrin birinci yarısında kilsəyə qarşı islahatların aparılması və əsrin sonlarında liberal meyillərin artması ilə sekulyarizmə cəhdlərə baxmayaraq, 20-ci əsrin ortalarından başlayaraq Argentinada katoliklik yenidən dirçəlmişdir.

Prezident X. D. Peron (1946-1955) dövründə Argentinada Katolik kilsəsi ciddi dəyişikliklərdən keçdi. Əvvəlcə seçkilərdə yepiskoplar Peronun namizədliyini dəstəklədilər, o da öz növbəsində kilsənin sosial doktrinasına uyğun siyasət aparacağına söz verdi. Prezidentliyinin ilk illərində o, kilsəyə təhsil sahəsində bir neçə imtiyazlar verdi. İbtidai və orta məktəblərdə dinin tədrisi yenidən tətbiq olundu, dərsliklər kilsə rəhbərliyinin razılığı ilə seçilirdi və katolik özəl təhsil müəssisələrinə dövlət tərəfindən subsidiyalar verilirdi. Nəticədə, kilsə təhsil prosesinə rəsmi təsir göstərmək imkanı əldə etdi. Katolik ruhanilərinin nümayəndələri Peronist partiyanın rəhbər orqanlarına və onun təşkilatına "mənəviköməkçilər" kimi daxil edilirdilər. Peronun fəaliyyəti Vatikan tərəfindən də təqdirəlayiq fəaliyyət kimi qiymətləndirilirdi. Məsələn, 1947-ci ildə Papa XII Piy Argentina tarixində 60 il davam edən dünyəvi və ateist dövrə son qoyan, ölkəni kommunizmdən xilas edən Peronu tərifləmişdi. 1949-cu ildə qəbul edilmiş Peronist konstitusiyaya əsasən, respublikanın prezidenti və vitse-prezidenti yalnız katolik ola bilərdi, həmçinin dövlətə kilsəyə maddi dəstək vermək öhdəliyi qoyulmuşdu [56]Bu dövlət və kilsə arasında yumşalan münasibətlər uzun sürməmişdi. 1952-ci ildə Peronun populist hökuməti totalitar meyllərini artıran zaman kilsə ilə ciddi münaqişəyə səbəb oldu [14]. Kilsənin Peronist həmkarlar ittifaqlarını

xristianlaşdırmaq və Xristian Demokrat Partiyasını yaratmaq istiqamətində hərəkətləri Peronu narazı saldı və o, onları hakimiyyətə birbaşa müdaxilə və onun hakimiyyətini zəiflətmək kimi qiymətləndirdi. Buna cavab olaraq, rəsmi mətbuat katolik olan hər şeyi ələ salmağa başladı, katolik yığıncaqları qadağan edildi, Santa Fe və Kordova universitet kitabxana təşkilatları kimi katolik təşkilatları ləğv edildi, dövlət idarələrindən xaçlar çıxarıldı, məktəblərdə dini tədris dayandırıldı və fahişəlik evlərinə yenidən icazə verildi [14]. Bunun ardınca təhsil sahəsində bütün imtiyazların ləğvi baş verdi, dövlət subsidiyalarının verilməsi dayandırıldı, “mənəvi köməkçilər” qovuldu və boşanmalara icazə verildi. Parlamentdə kilsənin dövlətdən ayrılması haqqında qanun qəbul edildi. Ruhanilərin etirazları, keşişlərin sürgün edilməsi və ya həbsi, "Katolik aksiyalarının" dağıdılması, dini yürüşlər və radioda dini verilişlərin yayımının qadağan edilməsi kimi növbəti hadisələrə səbəb oldu [56]. O vaxta qədər kilsə ölkədə demək olar ki, Peronun nəzarəti altında olmayan yeganə qurum olaraq qalırdı, lakin Peron kilsəni zəiflətməyə və siyasi həyat sferasından çıxarmağa çalışırdı. Kilsə öz hüquqlarını müdafiə etmək üçün Perona qarşı müxalifətə fəal şəkildə qoşuldu. Hökuməti devirmək cəhdinin qarşısı alındıqdan sonra, hökumət yerli kilsələri və tarixi arxivlər də daxil olmaqla, məzmunu külə dönmüş yepiskop kuriyasını yandıraraq, qisas almaq üçün kütlələri kilsəyə qarşı təhrik etdi [14]. Kilsələrin dağıdılması və yandırılması bütün ölkədə və hətta xaricdə böyük əks-səda doğurdu. 1955-ci ildə hərbçilər və onların müttəfiqləri Peronu prezident postundan getməyə məcbur etdilər [56].

1955-ci ilin sentyabrında Peron hökumətinin süqutundan sonra yeni inqilabi Xunta ədaləti bərpa etməyə başladı [14]. Yeni hökumət tətbiq etdiyi kilsə əleyhinə qanunları, o cümlədən kilsənin dövlətdən ayrılması və boşanmaya icazə verən qanunları ləğv etdi. Bu günə qədər mövcud olan himayədarlıq bərpa edildi. Dövlətin Kilsə üzərində nəzarəti XX əsrin 60-cı illərdə bir qədər yumşaldıldı. Yepiskopların təyin edilməsində “Müqəddəs taxt-tacın səlahiyyəti” tanınırdı. Kilsə kilsə təyinatlarında və yeni yepiskopluqların yaradılmasında təşəbbüs hüququ əldə etdi. Dövlət yepiskoplara, rahiblərə və kilsələrə maddi dəstək vermək öhdəliyini öz üzərinə

götürdü. Argentina ərazisində ordenlərin və monastır icmalarının yaradılması ilə bağlı bütün məhdudiyyətlər ləğv edildi, lakin onlara dövlət nəzarəti qorundu [56]. 20-ci əsrin sonrakı onilliklərində katolik kilsələrinin fəaliyyəti həm Argentinadakı siyasi hadisələrdə, həm də başlanğıcı II Vatikan Şurasının (1962-1965) təşəbbüsü ilə Roma Katolik Kilsəsində baş verən proseslərdə öz izini buraxdı. 1955-1976-cı illər ərzində Argentinada 12 dövlət başçısı dəyişdirildi (onlardan 6-sı - 1970-1976-cı illər), bəziləri ən yüksək dövlət vəzifəsində cəmi bir neçə ay qaldı və onların yarısı ordu generalları idi [56]. Ölkədəki ağır iqtisadi vəziyyət işçi tətillərinə səbəb oldu. Bu tətillərdə 5 milyona yaxın insan iştirak etmişdi. Ölkədəki vəziyyət və dünya katolikliyində yeni liberal meyllər, eləcə də 1968-ci ildə Latın Amerikası Yepiskoplarının Konfransının radikal qərarları din xadimləri sıralarında azadfikirliliyin yayılmasına və solçu siyasi baxışların yaranmasına kömək etdi. Həmçinin, 60-cı illərin sonlarında "Üçüncü Dünyanın müdafiəsində keşişlər hərəkatı" yarandı. Onun ideoloqları ədalətli cəmiyyətin sosialist olacağına inanırdılar, lakin sovet modelindən fərqli olaraq sosializmi “milli”, “xalq”, “humanist” və “tənqidi” təsəvvür edirdilər. Argentinalı filosof və ilahiyyatçı E.Düssel Kilsənin tarixinə və onun məqsədinə dair radikal fikirlərinə, həmçinin “azadlıq ilahiyyatı”nın inkişafında iştirakına görə dünya şöhrəti qazanmışdır [56].Ümumilikdə, nəticə etibarı ilə kilsə qüvvələri tərəfindən Peron hakimiyyətinə son qoyulması ilə kilsə əleyhinə qanunlar qəbul edilməsi və dövlətin kilsə üzərində nəzarəti yumşalmasına baxmayaraq, 70-inci illərdəki çoxlu dövlət başçısının dəyişdiyi hərbi xunta dövründə kilsənin mövqeyi yenidən zəifləmişdir.

70-ci illərdə bir sıra hərbi çevrilişlərdən sonra Argentina açıq terror ölkəsinə çevrildi. On minlərlə insan tutularaq həbsxanalarda və konsentrasiya düşərgələrində saxlanıldı və ya itkin düşdü [56]. Repressiyalar həm də keşişlərə və rahiblərə qarşı yönəldilirdi, onlar millətçi nəşrlərin anti-klerikal təbliğatı ilə müşayiət olunurdu. 1977-ci ilin sonlarında bir yepiskop və 17 keşiş və rahib öldürüldü, 30-u həbsxanada saxlanıldı. Katolik ruhanilərinin nümayəndələrinin təşəbbüsü ilə 70-ci illərdə Argentinada protestant kilsələrinin rəhbərləri ilə birlikdə “İnsan Hüquqlarının Ekumenik Hərəkatı” və “İnsan Haqları Daimi Assambleyası” kimi xristian təşkilatları

fəaliyyət göstərirdi. Rəsmi Katolik Argentina kilsəsi Çili, Braziliya və Mərkəzi Amerika dövlətlərinin kilsələrindən fərqli olaraq diktaturaya təsirli şəkildə qarşı çıxmadı.

1983-cü ildə ümumi seçkilər nəticəsində hakimiyyətə mülki hökumət gəldi. Argentinada hüquqi demokratik dövlət mexanizmləri bərpa olundu. 1987-ci ildə Roma Papası II İohann Pavel Argentinaya səfər etdi [56]. O, bir neçə şəhər və kənd rayonlarını ziyarət edərək çoxsaylı çıxışlarında vətəndaş hüquqları, dinlər, ayinlər, evangelizm və sosial problemlərə toxundu.

Ciddi iqtisadi problemlər 1989-cu ilin mayında Peronist namizəd Karlos Saul Menemin seçkilərdə qalib gəlməsinə səbəb oldu. Kilsə iyerarxiyası yeni hökumətlə harmoniya və sülh üçün çalışırdı. Böyük xarizmaya malik olan Menem, "çirkli müharibə" repressiyalarına qapını bağlamağı bacardı və milləti misilsiz mətbuat azadlığına təmin etdi. Argentinanı hiperinflyasiya və iqtisadi xaos çuxurundan çıxarmaq üçün kapitalizmə və ABŞ-a müraciət etdi və bu prosesdə Peronizmi bir çox cəhətdən onun ideoloji və praktiki əksi olan Menemizmə çevirdi [14].

1994-cü il Assambleyası Menemin 1995-ci ildə yenidən seçilməsinə icazə vermək məqsədi daşıyan yeni konstitusiya layihəsi hazırladı[14]. Dəyişikliklər arasında kilsənin ənənəvi təsirini zəiflədən bir neçə dəyişiklik də var idi. Artıq, respublika prezidentinin artıq katolik olması lazım olmayacaq və abortla bağlı sərt qanunlar dəyişdiriləcəkdi. Kilsə ilə dövlət arasındakı ayrılıq faktiki olaraq artırdı, halbuki əvvəllər yalnız nəzəri cəhətdən artmışdı. Bununla belə, katolik kilsəsi müxtəlif hökumət subsidiyaları vasitəsilə dövlət dini olaraq qalmağa davam etdi. Beynəlxalq miqyasda artan liberalizm qarşısında həm kilsə təlimlərinə şəxsi dəstək, həm də siyasi cəsarət nümayiş etdirən prezident Menem 1999-cu ildə 25 martı aborta qarşı "Doğulmamış Uşağın Günü" elan etdi. Vatikan tərəfindən alqışlanan Menemin bəyanatı bütün dünyanın diqqətini çəkdi və əksəriyyəti katolik olan digər dövlətlərin liderləri tərəfindən təqlid edildi.

## 1.2. Katolisizm Argentinada aparıcı xristian məzhəbi kimi

Argentinanın tarixi, mədəniyyəti, siyasəti və cəmiyyəti Roma Katolikliyi ilə dərin bağlara malikdir. Argentina tarixi boyunca katolik kilsəsi ölkədə əhəmiyyətli dərəcədə təsir və gücə sahib idi. Katoliklik Argentinaya XVII əsrdə İspaniyadan köç edən yezuit missionerləri tərəfindən gətirilib. XVI əsrdən XIX əsrə qədər ispan müstəmləkəçiliyi dövründə müasir Argentina ərazisində Roma Katolik Kilsəsi öz nüfuzunu möhkəmləndirə bildi [28]. Argentinada Roma katoliklərinin sayı əhalinin 60%-dən 90%-ə qədərini əhatə edir. Ümumdünya Faktlar Kitabı [The world factbook] ölkənin 92%-nin katolik olduğunu qeyd edir, lakin əlavə edir ki, 20%-dən az bir hissəsi öz inanclarına davamlı olaraq əməl edir [28].

Ümumiyyətlə, Katolik Kilsəsi yeparxiyalara və arxeyeparxiyalara bölünür. Məsələn, Buenos-Ayres, miqyasına və ölkənin paytaxtı kimi tarixi əhəmiyyətinə görə arxeyeparxiyadır. Arxiyepiskopun xidmət etdiyi Buenos-Ayres Metropolitan Katedralında, Argentinanın qurucularından olan general Xose de San Martinin qalıqları saxlanılır [28]. Roma katolikliyi ölkənin rəsmi dini deyil, lakin bir çox dövlət orqanlarında katolik nümayəndələri daha fəal iştirak edirlər. Əksər katoliklər kimi, bir çox argentinalılar əvvəllər Buenos-Ayres arxiyepiskopu olan rahibliyin və hal-hazırda argentinalı Papa - Xorge Mario Berqoqlio, Papa Francisin rəhbərlik etdiyi Roma Katolik Kilsəsinin səlahiyyətini qəbul edir. Latın Amerikasından seçilən ilk Roma Katolik Papası olan Papa Francis bir çox argentinalı üçün böyük qürur mənbəyidir.

İspan müstəmləkəsi dövründə Katolik Kilsəsi Cənubi Amerikadakı müxtəlif İspan vitse-krallıqlarında, o cümlədən sonradan müasir Argentina Respublikası ərazisində xristianlığın varlığı və dini sosial xidmətlərin əsas təminatçısı idi. Əvvəlcə 1810-cu il May inqilabından sonra, sonradan isə 1816-cı ildə İspaniyanın müstəqilliyi ilə ölkədə kilsənin təsir dərəcəsi ilə bağlı milli hakim elita arasında fikir ayrılıqları yarandı. İspaniya krallığı ilə əlaqələrin pislənməsini istəməyən Papalıq Cənubi Amerikanı bürüyən inqilabları qınadı və inkişaf edən Argentina ilə mübahisəli əlaqələr yaratdı. Bu mübahisə yalnız 1966-cı ildə Argentina Respublikası və Müqəddəs Taxt-Tac arasında konkordatla həll edildi [52].

1820-1824-cü illər arasında Martin Rodriqezin prezidentlik dövründə nazir Bernardino Rivadavia kilsə islahatı keçirdi. Bu islahat, ondalığın sıxışdırılması, Luxan ziyarətgahı, Xeyriyyə Qardaşlığı, Santa Katalina Xəstəxanası kimi bir sıra sıra digər dini ordenlərin əmlaklarının dövlətə verilməsini əhatə edirdi. Kilsə islahatlarına qarşı olaraq, Qreqorio Qarcia de Taqle-nin rəhbərliyi ilə Dominqo Açeqa, Mariano Benito Rolon, Ambrosio de Lezika kimi görkəmli vətəndaşların iştirak etdiyi "Apostolların inqilabı" başladı, lakin bir neçə saatlıq mübarizədən sonra uğursuzluğa düçar oldu. Argentina millətinin  yaranmasında Katolik Kilsəsinin rolu ilə birlikdə Rivadavia administrasiyasının islahatları Argentinada katolik ibadətinin hazırkı dəstəyinin əsasını təşkil edən tarixi zəminin səbəbləridir [43].

1819-cu ildə ilk Argentina Konstitusiyasının 1-ci maddəsi, 1826-cı il Konstitusiyasının 3-cü maddəsi və 1853-cü il Federal Konstitusiyasının 2-ci maddəsi əhalinin böyük qisminin dini olan Katolik kilsəsinin əhəmiyyətini vurğulayır. Müstəqillik uğrunda gedən döyüşlər zamanı dövlət orduları dəstəkləmək üçün bir çox məbəd əmlakını müsadirə etdi. Bu səbəbdən, Xuan Manuel de Rosasın zülmünə Kaseros döyüşü ilə son qoyulandan sonra, bu müsadirə 1853-cü il Konstitusiyasının 2-ci maddəsində qeyd edilir [43]. Beləliklə, XIX əsrdə Argentinada kilsə-dövlət münasibətləri hökumət ilə kilsə arasında məcburi dünyəvi təhsil, vətəndaş nikahı və dini orqanların hökumət tərəfindən təyin edilməsi məsələlərində bir sıra münaqişələrlə xarakterizə olunurdu. Argentina və Müqəddəs Taxt-Tac arasında bu məsələlərlə bağlı 1880-ci illərdə diplomatik əlaqələr kəsildi və onların bərpası 20 il çəkdi.

XX əsrin əvvəllərində Buenos-Ayres Parisdən sonra dünyanın ikinci ən böyük katolik şəhərinə çevrildi. Qeyd etmək lazımdır ki, XXXII Beynəlxalq Evxaristik Konqresi 1934-cü ilin 9-14 oktyabr tarixində Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilib. Bu, Latın Amerikasında ilk, Amerika qitəsində (Monreal və Çikaqodan sonra) isə keçirilən üçüncü tədbir idi. Oktyabrın 9-da ilk Argentina müqəddəsi - Hektor Valdivielso Sáezin öldürüldüyü gün Argentina katolikliyinin dirçəlişini qeyd edən Beynəlxalq Evxaristik Konqresi işə başladı. Bu da Argentinada kilsənin yeni həyatının başlanğıc nöqtəsi idi. Bununla da  Argentinada yeparxiyaların sayı artdı, çağırışlar

genişləndi və yeni kilsələr tikildi [52]. Beləliklə, XX əsrin əvvəllərində Argentinada dövlət ilə Katolik kilsəsi arasında münasibətlər yaxşılaşdı. Bunun nəticəsində dövlət məktəblərində dini təhsilə icazə verildi.

Bədnam Onillik dövrü, ondan sonra diktatura və Xuan Peron hökumətinin ilk səkkiz ili dövlətlə katolik kilsəsi arasındakı münasibətlərə xələl gətirdi. 1954-cü ildə prezident Peron katolik kilsəsi ilə əlaqələri kəsdi və onunla qarşıdurmaya başladı. Peron rejimi katolik bayramları üçün qeyri-iş günlərini ləğv etdi, boşanma və fahişəliyi qanuniləşdirdi, ictimai yerlərdə dini nümayişlər qadağan edildi. 1955-ci ilin 11 iyununda qanunsuz olmasına baxmayaraq, Buenos-Ayresdə Korpus Kristi yürüşünə təxminən 200 min insan qatıldı. Peronist rejim isə tədbirə qatılanları vandalizm və Argentina bayrağını yandırmaqda ittiham etdi. Ertəsi gün peronistlər Buenos-Ayres Metropolitan Katedralini yandırmağa cəhd etdilər, lakin Katolik Fəaliyyətinin üzvləri və UNES (Tələbələrinin Millətçi Birliyi) onların qarşısını aldılar. İyunun 16-da May meydanında ("Plaza de Mayo") peronistlərin mitinqi zamanı, anti-peronistlərin 300-dən çox mülki şəxsin ölümünə səbəb olan uğursuz çevriliş cəhdinin bir hissəsi olaraq meydan bombalandı. Buna cavab olaraq peronistlər bir neçə kilsəni dağıtdılar və yüzlərlə anti-peronist və keşiş həbs edildi [13].

Katolik kilsəsi ilə Argentina hökumətinin münasibətləri yalnız Peronun devrilməsindən sonra yumşalmağa başladı. 1966-cı ildə Argentina ilə Müqəddəs Taxt-Tac arasında Konkordat imzalandı və bu günə qədər bu sənəd onlar arasında münasibətləri tənzimləyir və yepiskopların təyin edilməsinə müstəsna olaraq Papanın nəzarət etdiyini açıq şəkildə bildirir. Kilsə və dövlət arasındakı münasibətlər solçu partizan təşkilatları ilə qarşıdurmalar, insan hüquqlarının pozulması ilə bağlı qarşıdurmalar və iqtisadi ədalətsizliklərlə xarakterizə olundu. Bu dövrdə bəzi keşişlərin və çoxsaylı katoliklərin bağlı olduğu solçu silahlı qrupların yüksəlişi ilə üst-üstə düşən İkinci Vatikan Şurasından sonra azadlıq teologiyası kilsədə populyarlaşdı. Peronist rejiminin qayıdışı (1973-1976) dövründə siyasi zorakılığın artması ilə kilsədə mühafizəkarların təsiri artdı və hətta 1976-cı ildə dövlət çevrilişindən sonra o öz yerini Çirkli Müharibə ("Dirty War") ilə məşhurlaşan sağ qanadlı hərbi xuntaya verdi.

Çirkli Müharibə zamanı kilsə səlahiyyəti olanların mövqeləri müxtəlif idi. Vəziyyətdən asılı olaraq, bəzi yepiskopların və keşişlərin açıq dəstəyindən solçuların silahlı dəstələrinə keçdilər, beləliklə xunta və onun hərəkətlərini açıq şəkildə dəstəklədilər. Ruhanilərin böyük əksəriyyəti yaranan hadisələrə məhəl qoymadıqları üçün və ya işə qarışmamağı seçdikləri üçün kənarda qalmağı seçdilər. Qeyd etmək lazımdır ki, Çirkli müharibə zamanı itkin düşənlərin bir qismi məhz keşişlər idi. Roma Papasının Argentinaya ilk səfəri fəlakətli Folklend (Malvin) müharibəsi başa çatdıqdan sonra 1982-ci ildə baş tutdu. İoann Pavel II İngiltərəyə papa səfəri planlaşdırmışdı. Bu, Anqlikan Kilsəsi ilə ekumenik əlaqələr üçün vacib idi, lakin o, Argentina katolikləri ilə münasibətləri pozmaq istəmirdi. Argentina xalqına məktub göndərdi və ölkəyə qısa bir səfər etdi [52].

1983-cü ildə demokratiyaya dönüşlə nikahdankənar doğulan uşaqların vəziyyəti, evlilik və boşanma da daxil olmaqla əvvəlki məsələlər yenə gündəmə gəldi. Bu məsələlərlə bağlı mübahisələr, xüsusilə Prezident Raul Alfonsinin administrasiyası dövründə əsas müzakirə mənbəyi oldu. 1987-ci ildə Papa II İohann Pavel , Argentinalı ruhani Eduardo Pironionun rəhbərlik etdiyi təşəbbüslə Buenos-Ayresdə ilk Dünya Gənclər Günü üçün ikinci dəfə Argentinaya səfər etdi. Prezident Karlos Menemin (1989-1999) administrasiyası dövründə Menemin özünün doğulmamış körpənin müdafiəsinə dəstək olaraq təbliğ etdiyi "doğulmamış uşaq günü" martın 25-də elan edildi. Prezident K.Menemin bu işə göstərdiyi fədakarlığına görə Papa II İohann Pavel tərəfindən təqdir edildi. Bununla belə, bir neçə tanınmış yepiskop Menemin iqtisadi siyasətini pislədi, çünki onlar yoxsulluq səviyyəsini artırdılar [43].

Nestor Karlos Kirşnerin prezidentliyi dövründə kilsə ilə dövlət arasında münasibətlər kəskinləşdi və Buenos Ayres arxiyepiskopu kardinal Xorxe Mario Berqoglio (indiki Papa Fransisk) ilə münasibətlər çox gərgin idi. Bundan əvvəl hökumət May İnqilabının ildönümləri də daxil olmaqla, Buenos-Ayres Katedralində ənənəvi Te Deum mərasimindəki iştirakı qadağan etmişdi. Səhiyyə naziri Qines Qonzales Qarsianın siyasi qərarlarına qarşı çıxan hərbi yepiskop Antonio Baseottonun vəzifədən kənarlaşdırılması kimi qarşıdurmalar baş verdi. Abortun

dekriminallaşdırılmasını və gənclərə prezervativlərin paylanmasını təbliğ edən Qines Qonzales Qarsia kilsə tərəfindən zorakılığa təhrik kimi şərh edildi. Horasio Verbitsky kimi hökumətlə əlaqəli ünsiyyətçilər, bir çox din xadimlərini Çirkli Müharibə zamanı insan hüquqlarının pozulması ilə əməkdaşlıqda ittiham etməyə həsr olunmuş qeydlər və kitablar yaydılar. Nestor Karlos Kirşnerin yerinə 2007-ci ildə həyat yoldaşı Kristina Fernández de Kirşner keçdi və onun dövründə eynicinsli nikahlar qanuni oldu. Nəticədə, bu hökumət və kilsə arasında münasibətləri gərginləşdirdi. Katolik kilsəsi protestant konfessiyaları ilə birlikdə qəbul edilən qanuna etiraz aksiyaları təşkil etdi. Kardinal Berqoglio qanun layihəsinə qarşı çıxan millət vəkillərinə bəyanat verib və bu səyi "yalanların atasının Allahın övladlarını çaşdırmaq və aldatmaq üçün etdiyi hərəkat" adlandırdı. Argentina Yepiskop Konfransının iclası zamanı siyasi bəyanatda o, katolikləri qanun layihəsini dəstəkləyən siyasətçilərə qarşı çıxmağa çağırdı. Bununla belə, Argentinada hələ də qanun qüvvədə idi və o, Latın Amerikasında eynicinsli nikahı leqallaşdıran ilk ölkə oldu. Bu fərqli mövqelərinə baxmayaraq, prezident Kirşner hər iki prezidentlik dövründə abortun qanuniləşdirilməsinə qarşı olduğunu dəfələrlə ifadə edib. İkinci səlahiyyət müddətinə keçdikdən qısa müddət sonra prezident Yepiskop Konfransı ilə keçirdiyi 45 dəqiqədən çox davam edən görüşdə bu mövqeyini bir daha təsdiqlədi və bununla bağlı Deputatlar Palatasında müzakirəyə çıxarılmasına mane oldu. 2013-cü ildə kardinal Berqoglio Papa seçildi və bu, Katolik Kilsəsi ilə hökumət arasında münasibətlərin yaxşılaşmasına səbəb oldu [13].

2000-ci ildən sonra katoliklərin bir çox u müntəzəm olaraq kilsəyə getməməsinə baxmayaraq, katolik əhval-ruhiyyəsi və mədəni kimliyi güclü olaraq qaldı. [14] Ölkə 2,596 kilsə, 3,532 dünyəvi və 2,345 dini keşiş, 848 dini qardaş və 10,773 sayda dini bacıdan ibarətdir və argentinalıların əksəriyyətinin vəftiz, , nikah və xristianlıq üçün vacib olan katolik dəfn ayinlərində iştirak edərək həyatlarına xüsusi məna verdiyini qeyd edirlər. [14] 1996-cı ildə aparılmış sorğuda Argentinalıların 94 faizi Allaha inandıqlarını, 78 faizi isə müntəzəm olaraq hər hansı bir ruhani düşüncə tərzinə vaxt ayırdığını bildirib. 21-ci əsrin əvvəllərində Argentina yepiskoplarının millətin mənəvi

dəyərlər böhranı yaşadığına dair narahatlığına baxmayaraq, bu cür cavablar göstərirdi ki, kilsədə milli birlik, kimlik və birlik hissinin yaradılmasında güclü amil olaraq qalır.

Katolikliyin Argentina cəmiyyətində və gündəlik həyatında dərin təsiri vardır. Həqiqətən də, çarmıxa çəkilən xaçlar və kilsələr kimi dini rəmzləri hər yerdə görmək mümkündür. Kilsəyə daha çox vəftiz, toy və dəfn mərasimləri kimi hallarda gedirlər. Argentinalıların bir qismi bazar günləri kilsəyə gedərkən, bir çoxu həftə sonunu ailəsi ilə keçirmək üçün vaxt ayırır. Yaşlı nəsil, xüsusən kilsələrə getməklə əlaqədar olaraq, Argentina gənclərindən daha çox katolikliyə bağlı olurlar. Bu onu göstərir ki, katolikliyin son onilliklər ərzində ölkədə populyarlığı azalmaqdadır. Eyni zamanda, katolisizmdən fərqli olaraq ölkə ərazisində protestantantlıq daha geniş yayılmağa başlayıb, həmçinin heç bir dinə etiqad etməyən əhalinin nisbətində bir xeyli artım olmuşdur.

Argentinalıların bir çoxu hər il yerli ziyarətgahlara və müqəddəs yerlərə gedirlər. Ən çox ziyarət edilən yerlərdən biri də Buenos-Ayresdən 65 km qərbdə yerləşən Luxandır. Hər il bir çox insan Argentinanın müqəddəs himayədarı hesab olunan bakirə Luyana ehtiram göstərmək üçün üçün Buenos-Ayresdən piyada ziyarətə gedir. Digər bir ziyarət yeri - Salta əyalətində yerləşən möminlərin "Möcüzələr Rəbbimizi" (Our Lord of the Miracles”) şərəfləndirmək üçün getdikləri yerdir. Bu adətən hər il sentyabrın 15-də baş tutur. Digər əhəmiyyətli ziyarət yeri Korrientes əyalətində Parana çayı üzərində yerləşən İtatidir. Möminlər ora bakirə Itatiyə öz ehtiramlarını göstərmək üçün hər il iyulun 16-sı tarixində səfər edirlər [32].

Ölkədə, xüsusən də kənd yerlərindəki katolik adətləri, bir çox sinkretizmi birləşdirən kimi görülə bilər. Bu, sadəcə olaraq müxtəlif düşüncə məktəblərinin təcrübələrinin qarışması ilə müxtəlif inancların birləşməsidir. Bu cür təcrübələrə misal olaraq şimal-qərb əyalətlərində keçirilən dini bayramları göstərmək olar. Bu festivallar Katolik simvollarını köhnə And yerli mərasimlərində yerli əhalinin dini inancları ilə birləşdirir. Paçamama ibadəti hələ də Jujuy və Salta əyalətlərində katolik inancları ilə yanaşı çox yayılıb. Paçamama ilə əlaqəli bir çox rituallar xristianlıq ilə birlikdə tətbiq edilir, bir çox ailə eyni vaxtda xristian və paçamamist olur.Paçamama ibadətinə katolik

yepiskopları qarşı çıxmayıb [32]. Həmçinin, Argentinada doqquz Katolik universiteti var: Argentina Papa Katolik Universiteti (Buenos Ayres), Salvador Universiteti (Buenos Ayres), Kordoba Katolik Universiteti, La Plata Universiteti, Salta Universiteti, Kuyo Universiti və Santyqo del Estero Universiteti. Dini təriqətlər, hökumətin maliyyələşdirdiyi və maliyyələşdirmədiyi bütün ölkə ərazisində yüzlərlə ibtidai və orta məktəbi idarə edir və onlara sponsorluq edir [32]. Hal-hazırda, katolik kilsəsinin təsiri, onun mürəkkəb tarixini nəzərə alsaq, bir zamanlar olduğu kimi deyil. Bu, daha çox ədalətsiz gəlir bölgüsündən və ölkəni narahat edən sosial ziddiyyətlərdən təsirlənən imkansız əhaliyə qarşı xeyriyyə işi şəklində ortaya çıxır. Bu təşkilatlardan ən görkəmlisi Karitas adlanır [32]. Karitas Almaniyada Birinci Dünya Müharibəsindən sonra müharibəyə yardım təşkilatı olaraq fəaliyyətə başladı və İkinci Dünya Müharibəsindən sonra Vatikan 200-dən çox ölkədə Karitas yardım mərkəzləri və xeyriyyə təşkilatları quraraq beynəlxalq səviyyəyə keçid etdi. Karitas 1956-cı ildə Buenos-Ayres arxeparxiyasında yaradılıb və Argentinadakı xeyriyyə təşkilatları ilə müqayisə edildikdə ölkənin iqtisadiyyatını sarsıdan nadir böhranlara uyğunlaşaraq öz aktual formasına malikdir. Karitas Argentinanın onun kilsələrdəki təməlləri, çox sayda könüllüləri və icmadan vəsait toplamaq səyləri kimi özünəməxsus xüsusiyyətləri var. 1986-cı ildə Yepiskoplar Konfransı Karitas təşkilatını kilsənin Argentinada rəsmi xeyriyyəçilik fəaliyyətini koordinasiya edən təşkilatı kimi təsdiqlədi [34]. 1970-ci illərin ortalarında Latın Amerikası Karitaslarının əksəriyyəti səylərinin çoxunu təcili yardıma, xüsusən də ərzaq, dərman və geyimə həsr etdi. Bu tendensiya Argentinada 1980-ci illərin əvvəllərində insan inkişafına daha çox diqqət yetirmək və insanların müxtəlif layihələrdə iştirak etmələri və mühüm rol oynaması zərurəti yarandığı zaman dəyişməyə başladı [34]. Maraqlıdır ki, Karitas öz internet saytında dövlətlə münasibətlərini açıq şəkildə bildirir və qeyd edir: "Karitas Argentina xalqına konkret tədbirlər təmin etmək məsuliyyətində dövləti əvəz etmək fikrində deyil. Karitasın strategiyası bir-birini tamamlayır və yoxsulluq vəziyyətində olan insanlara və ailələrə yardımda dövlət və digər ictimai təşkilatlarla dialoq, insan inkişafının təkmilləşdirilmiş üsullarını təşviq edən innovativ layihələrin müəyyən edilməsi və dəstəklənməsi kimi

funksiyalardan ibarətdir." Aydındır ki, katolik kilsəsi dövlətlə birbaşa əlaqənin etibarsızlığını dərk etmişdir və Karitas yalnız vətəndaş institutları ilə məşğul olmaqla, dövlət sektorunda işləməkdən effektiv şəkildə yayınır [34]. Bununla da, qeyd etmək olar ki, ölkədə dini təşkilatların cəmiyyətdə böyük rolu olmasına baxmayaraq onlar dövlətin işinə qarışa bilmirlər və bundan çəkinirlər.

## 1.3. Protestantlığın Argentina cəmiyyətində rolu

Argentinada erkən protestantlığın meydana gəlməsi (1800-cü illər) ingilis metodistləri (İncili təbliğ edən ingilis-amerikan dini təriqətinin tərəfdarı), şotland presviterianları (İngiltərə və Amerikada protestant məzhəblərindən birinin tərəfdarları), alman və skandinav lüteranları, italyan valdensiyarı (Xristian hərəkatı), uels protestantları, alman-rus baptistləri, fransız-isveç baptistləri, ermənilər, hollandlar və digərlərinin gəlişi ilə bağlı idi. Anqlikan və presviterianlar 1824-cü ildə Argentinanın Buenos-Ayres şəhərində öz doğma dillərində missioner fəaliyyətlərinə başladılar. 1850-ci illərdən başlayaraq, ingilis missonerləri Pataqoniya əyalətində, daha sonra Çako əyalətində yerli hindular arasında dinin təbliğinə başladılar. 1800-ci illərin sonuna doğru isə yeni protestant missionerlərin dini yaymaq cəhdləri ispandilli əhali arasında da geniş yayılmağa başladı.

1840-cı ildən başlayaraq, alman lüteranları və islahatçılarının Argentinaya gəlişi ilə Evangelikan kilsəsinin əsası qoyuldu. 1843-cü ildə Buenos Ayresdə Alman Evangelist Ruhanilər Məclisini əsası qoyuldu. Bu, Rio de la Platada ilk almandilli icmanın əsasının qoyulması demək idi və Argentinada məskunlaşan almandilli əhalinin doğma kilsəsinə çevrildi. Daha sonra İsveçrə, Avstriya, Rusiya, Braziliya və Rumıniyadan olan immiqrantlar da bu kilsəyə qoşuldular. Bu kilsə 1965-ci ilə kimi Alman Evangelist Kilsəsinin tərkib hissəsi olmasına baxmayaraq, bu zamandan sonra müstəqil fəaliyyət göstərməyə başladı. Bu gün almandilli ruhani məclisinin nümayəndələrinin 70%-i Argentinada, digərləri isə Uruqvay və Paraqvayda yaşayırlar.

Yeni Beynəlxalq Apostol kilsəsinin xarakteristikasını vermək çox çətindir, lakin onlar Cənubi Amerikaya 1920-ci illərdə Avropadan olan apostol ailələrinin Argentina və Uruqvay sərhədləri boyunca Rio de la Plata sahillərində məskunlaşmaqları ilə başladı. Cənubi Amerikada Apostol kilsəsinin əsasının qoyulması holland Sijtze Faberin adı ilə bağlıdır, o, bu kilsənin əsasını Kordoba əyalətində qoyaraq, burada bir neçə apostol ailəsinin qayğısına qalırdı. 1930-cu ildə Avropadan gələn apostolun tələbi ilə ibadətin yerli dillərdə keçirilməsi qərarı verildi. Dövlət tərəfindən isə 1938-ci ildə rəsmən tanındı. Bu dini qrup əslində İngiltərədə 1830-cu ildə yaranmış və əsl adı Katolik Apostol Kilsəsidir. Onların kökü qismən presviterian və anqlikan nəzəriyyəsinə söykənir. Beynəlxalq idarələri isə İsveçrənin Sürix şəhərində yerləşir. Pentekosta [1] protestant cərəyanın yenilənmiş istiqamətidir və Argentina protestantlarının 70%-i bu məzhəbə qulluq edir. Bir çox pentekostal liderlər diktatura və hərbi rejim, Çirkli müharibə və Böyük Britaniya ilə uğursuz müharibədə adları hallanırdı. Bu cür insanların timsalında inanclı insanların dinə inamı azaldı.

Argentina Yenilənmə (Dirçəliş) hərəkatı 1967-ci ildə meydana gəlib. Bir qrup şəxs Buenos Ayres ətrafında yerləşən zəngin bir şəxsin evində toplanaraq, səsli (qışqıraraq) dua etməyə başlayırlar. Bu insanların marağına səbəb olmuş və həftələr sonra daha çox insan bunu seyr etməyə gələrək, bunu ictimailəşdirdilər. 1968-ci ilin ilk aylarında bu hərəkatın liderləri 600-700 iştirakçını bir yerə yığmaq üçün ərazilər icarəyə götürməyə başladılar. İştirakçıların arasında həmçinin katoliklər və evangelistlər var idi. Bu hərəkat getdikcə bütün ölkələrə yayılmağa başladı və 1972-ci ildə Buenos Ayresdə ilk Latın Amerika Yenilənmə konfransı keçirildi. Konfransda 20-dən çox ölkədən gəlmiş evangelist və katoliklər iştirak edirdi. Bəzi mənbələrə əsasən böyük Argentina Oyanışı 1982-ci ildə böyük şəhərlərdə başlamışdır. Oyanışın rəhbərləri evangelistlərə çevrilən biznesmenlər idi[52].

C.Tompson - Latın Amerikasında ilk protestant missioneri Argentinada qısa müddət ərzində 1820-ci illərdə 100 məktəb qurdu. B. Rivadavia təhsil islahatında iştirak etmək üçün iki protestant missioneri cəlb etdi. Onlardan biri, pastor U.Morris

[1] Müqəddəs ruhla birgə Baptizm vasitəsi ilə Allahla insanın birbaşa əlaqə qurması fikrini dəstəkləyir

Latın Amerikasında protestant missioner fəaliyyətinin simvoluna çevrildi. O, yüz minlərlə uşağın təhsil aldığı Argentina xeyriyyə məktəblərini yarada və saxlamağa müvəffəq oldu. Buenos-Ayresdə Morrisin 7 metrlik heykəli var və üzərində "Müqəddəs Argentina" yazısı var. Mühacirlər arasında - texniki mütəxəssislər, məmurlar, kiçik və orta burjua - əhəmiyyətli bir hissəsi protestantlığa sadiq idi. Pastorlar(icmadan olan insanlara məsləhət verən xristian yığıncağının rəhbərləri) da onlarla birlikdə gəldilər. Əvvəlcə protestant icmaları etnik xarakter daşıyırdı. Almanlar lüteranlığı, ingilislər anqlikanizmi, amerikalılar daha çox metodistlər və baptistlər idi. 1825-ci ildə Böyük Britaniya ilə dostluq və ticarət müqaviləsi bağlandı. Nəticədə, onun təbəələrinə vicdan azadlığı, evlərində və kilsələrində ibadət etmək hüququ təmin olundu. Bu fakt 1826-cı il konstitusiyasında dini dözümlülük haqqında maddənin qəbulu üçün də əsas olub. Argentinada ilk protestant kilsəsi 1829-cu ildə Buenos-Ayresdə tikilib. Protestantlara öz qəbiristanlıqlarına sahib olmaq hüququ verilib. Bütün vətəndaşların dini azadlıq hüququnu təmin edən 1853-cü il Konstitusiyası protestantların missionerlik fəaliyyətinin genişlənməsinə yardım etdi. Protestantlar öz dinlərini 1880-1920-ci illərdə əsasən mühacirlər arasında və şəhərlərdə yayırdılar. Protestantların sayında nəzərəçarpacaq artım 1947-1960-cı illərdə effektiv missionerlik fəaliyyəti nəticəsində baş verdi[13]. Ən böyük uğuru baptistlər və adventistlər əldə etdilər. Onlar öz din qardaşları üçün məktəblər tikir, radio şəbəkəsindən geniş istifadə edir və sosial sahədə çalışırdılar. Metodistlər arasında argentinalı ilahiyyatçı J. M. Bonino fərqlənirdi. O, “azadlıq teologiyası”nın inkişafına mühüm töhfə vermişdir. Argentinada protestantlıq əhalinin böyük hissəsi tərəfindən əcnəbilərin dini kimi qəbul edilir

Argentinada protestantlığın əsas təriqətlərindən biri olan **Mormon kilsəsi** büyük rol oynamışdır. Mormon kilsəsinə aid olan Vilhelm Fridrixs və Emil Hoppe adlı iki alman mühacir 1923-cü ildə Buenos Ayresdə İncili təbliğ etməyə başladılar. 1925-ci ilin dekabrında kilsə Apostol Melvin J. Ballardı Cənubi Amerikanı İncilin təbliğinə həsr etmək və Cənubi Amerika missiyası üçün göndərməklə, onların uğurunu möhkəmləndirdi[11]. Ballard Argentinanı tərk etməzdən qısa müddət əvvəl gələcək

haqqında xəbər verdi: “Rəbbin işi burada bir müddət palıdın palıd qozasından yavaş-yavaş böyüdüyü kimi yavaş-yavaş böyüyəcək”. Vaxtı çatanda o, "Cənubi Amerika missiyası kilsədə güc olacaq" dedi.

Proqnozlaşdırıldığı kimi, kilsə əvvəlcə Argentinada yavaş-yavaş böyüdü. Argentinalı üzvlər 1940-cı illərdə əcnəbi missionerlərin ölkədən çıxarıldığı və yerli üzvlərin filiallara və missiya təşkilatına rəhbərliyi öz üzərinə götürdüyü zaman dəyərli təcrübə qazandılar. 1946-cı ildə xarici missionerlər qayıtdıqdan sonra artım sürətləndi. 1950-ci illərdə başlanmış inkişaf kilsənin sürətlə genişlənən üzvlüyü üçün yerli yığıncaq evlərini təmin etdi və ölkə daxilində missiyaların qurulması üçün çağırılan gənc kişilərə iş yerində təlim imkanları verdi. 1966-cı ildə Buenos-Ayresdə bir ibadətgah yaradıldı və bir müddət sonra bir neçə digəri yaradıldı. 1986-cı ildə Buenos Ayres Argentina Məbədi tikildi. 21-ci əsrin əvvəllərində Argentinalıların təxminən 1%-i "Axırıncı Günün Müqəddəsləri" idi. 2015-ci ildə Kordobada ikinci məbədin tamamlandığı, üçüncü məbədin isə 2018-ci ildə Saltada tikiləcəyi elan edildi [35].

Argentinada protestantlıq məzhəbinin digər təriqəti olan **Anqlikan kilsəsi** də geniş yayılmışdır. Buenos-Ayresdəki Anqlikan Kilsəsinin əsası 1825-ci ilə, Böyük Britaniya ilə Rio de la Plata Birləşmiş Vilayətləri(müasir Argentina) arasında imzalanan Dostluq, Ticarət və Naviqasiya müqaviləsindən sonrakı dövrə təsadüf edir. Bu zaman onun yaradılmasına icazə verilir. 1827-ci ildə binanın tikintisi üçün addımlar atıldı, bu layihə 1831-ci ildə başa çatdı. Martın 6-da Buenos Ayres şəhərində, 25 May küçəsində vəftizçi Yəhyanın Britaniya Yepiskop Kapellasının binasının açılışı oldu. Kilsə tarixində əsaslı dəyişiklik kral kilsələrin maliyyə dəstəyini dayandırması ilə bağlı qərarı oldu (1874-cü il Konsul Dindarlığı Aktı). 1875-ci ildən Müqəddəs Yəhyanın Anqlikan Kilsəsi adlandırılsa da, "vəftiz sözü 1922-ci ildə yenidən əlavə edildi. Nəhayət kilsə 1964-cü ildə katedrala qədər yüksəldildi [30].

Əlavə olaraq, Anqilan kilsəsi Anqlikan Birliyinin kilsə əyaləti olaraq ümumilikdə bütün materiki əhatə edə Cənubi Amerikanın Anqlikan Kilsəsi ( ispanca: Iglesia Anglicana de Sudamérica ) Argentina, Boliviya, Paraqvay, Peru və Uruqvay ölkələrində altı yeparxiyadan ibarətdir. 1981-ci ildə yaradılan əyalətin 2013-cü ilin

aprelində 25.000 üzvü var idi. Üzvlərinin böyük əksəriyyəti Argentinada (xüsusilə Buenos Ayres və onun ətrafında) yaşayır, Cənubi Amerikanın qalan hissələrində isə seyrək yayılmışdır. Bu, coğrafi baxımdan ən böyüklərindən biri olsa da, üzvlər baxımından Anqlikan Birliyinin daha kiçik əyalətlərindən biridir [36]. Ümumilikdə isə, əyalət Çilidə 100 Şimali Argentinada 200, Argentinada Buenos Ayresdən cənubda 30, Peruda 60, Boliviyada 10, Paraqvayda 50 və Uruqvayda isə 20 prixoddan(xristianlıqda aşağı kilsə təşkilatı və bu təşkilat üzvülərinin yaşadığı yer, məhəllə) ibarətdir.

Ölkədə sayca az olmasına baxmayaraq digər önəmli təriqət isə **Mennonitizmdir.** Argentinadakı mennonitlər iki tamamilə fərqli qrupa aiddir: Friz, Flamand və Prussiya xalqlarının nəslindən olan rus mennonitlərinin mühafizəkar Plautdiç etno dilinə məxsus qrup və ümumi Argentina əhalisindən mennonit inancını qəbul edənlər. Rus mennonitləri Argentinada dörd koloniya ilə Cənubi Amerikada üçüncü ən böyük mennonit icmasıdır. Rus mennonitlərinin öz dilləri və adət-ənənələri var. Onlar mütəmləkələrdə yaşasalar da, mennonit inancını sonradan qəbul edənlər normal olaraq şəhərlərdə yaşayır, ispan dilində danışır və Argentinadakı digər protestantlardan çox da fərqlənmirlər. Mühafizəkar etnik mennonitlər adətən missionerlik fəaliyyəti ilə məşğul olmurlar, lakin öz ənənələrinə uyğun yaşaya biləcəkləri sakit və uzaq yer axtarırlar. Daha liberal mennonitlər digər Şimali Amerika protestant məzhəbləri kimi dünya miqyasında missionerliklə məşğul olurlar. Argentinadakı mennonitlərin təxminən 1/3-i Altkolonier(Köhnə Müstəmləkə) qoluna aid olan mühafizəkar etnik mennonitlərdir. Mennonitlər bir dini qrup olaraq öz köklərini Protestant Reformasiyası dövründən götürürlər. Onlar Reformasiyanın radikal qanadına mənsub idilər, öz ibadətlərini yalnız Allahın Kəlamı olan İncil üzərində qurmağa və ona uyğun yaşamağa çalışırdılar.

Etnik mennonitlərin əksəriyyətinin uzun mühacirat tarixi var. Argentinadakı etnik mennonitlər, təxminən 1800-cü illərdə Rusiya İmperiyasının bu gün Ukraynaya aid olan hissəsinə köçmüş Vistula deltası mennonitlərinin nəslindəndir. Onlar 1870-ci illərdə Kanadaya, 1920-ci illərdə isə oradan Meksika və Paraqvaya köçdülər. Mennonitlərin Argentinaya böyük miqrasiyası 1986-1987-ci illərdə, əsasən Meksika,

Uruqvay və Paraqvaydan baş verdi. Müxtəlif ölkələrdən olsalar da, hamısı Rusiya İmperiyasında etnik qrupa çevrilmiş eyni holland-prussiya etnik mənşəlidir. Buna görə də, onları tez-tez bir qədər yanıltıcı şəkildə "rus" mennonitləri (almanca: Russland-Mennoniten) adlandırırlar. Bu mennonitlərin etno-dili Plautdiçdir.

2012-ci ildə Argentinada Mennonit inancının yetkin üzvlərinin sayı 4678 nəfər idi. Bunlardan 1440 nəfəri alman mənşəli Köhnə Koloniya Mennonit qruplarının üzvləri, qalan 3238 nəfər isə əsasən ispandilli qruplarda idi [7]. Dörd müstəmləkədə yaşayan etnik mennonitlər əsasən torpaq becərməklə məşğul olublar və elektrik, avtomobil, telefon, televiziya və ya müasir həyatın digər imkanları olmadan sadə həyat sürürlər. Onlar sadə geyimləri və dünyadan uzaq olmaq meylləri ilə seçilirlər. Xarici dünya ilə əlaqələr yalnız xammalın alınması və məhsulların satışı ilə məhdudlaşır. Argentinadakı etnik mennonitlər gündəlik həyatda Plautdiç dilində danışır, oxu və yazıda qədim alman dilindən istifadə edirlər. Bundan əlavə, bəzi miqrantlar səlis ispan dilində danışır və məktəblərdə bu dil tədris olunur. Mennonit inancını sonradan qəbul edənlər isə, dinlərini dəyişdirməkdən əvvəl danışdıqları dildə, yəni əsasən ispan dilində danışırlar

19-cu əsrdə və 20-ci əsrin ilk onilliklərində, miqrant icmaları bütün Atlantik sahillərində kənd yerlərində kilsələrini qurdular. Onlar dini məsələlərdə həm homogen koloniyalar qurdular, həm də birliklər daha fərqli və daha az cəmləşmiş əhali bölgəsində yaradıldı. Buna, 1865-ci ildən uelslilərin və 1902-ci ildən Boer icmasının məskunlaşdığı Çubut və 1901-ci ildə Valdensian mühacirlərini qəbul edən La Pampanı misal göstərmək olar[48].Onlar həmçinin erkən zamanlarda şəhər yerlərində, xüsusən də Buenos-Ayresdə təşkil edilmişdi. Buradan bir çox rahib öz din qardaşlarına xidmət etmək üçün ölkə daxilində səyahət edirdilər və burada tarixi protestantlığın ən böyük və üstünlük təşkil edən kilsələrindən bəziləri etnik sığınacaqlar kimi tikildi. Bunlar misal olaraq, 1829-cu ildən presviterianlar, 1843-cü ildən lüteranlar və 1825-ci ildən isə anqlikanlar tərəfindən tikilən kilsələri göstərmək olar [47].

Bununla yanaşı, həm Argentinanın şimalında, həm də cənubunda yaşayan yerli əhaliyə, eləcə də Buenos-Ayres və ya Rosario məhəllələrində son dövrlərdə gələn

immiqrantlara qayğı göstərən missiyalar yaradıldı və hətta əvvəlki protestant təriqətlərinə məxsus məskunlaşanların dini həyatı yenilədi. Anqlikanlar, metodistlər, baptistlər, Məsihin şagirdləri, mennonitlər, adventistlər, pentikostallar, əvvəlki mədəni repertuarlarının bir hissəsi kimi ümumiyyətlə protestant olmayan əhali arasında evangelizmi təbliğ etməyə özlərini həsr edənlərdən bəziləri idi [47].

Əsasən ABŞ-da və Kanada yayılan protestant cərəyanı olan **Məsihin şagirdləri kilsəsinin** Argentinada üzvlərinin sayı yalnızca 700 nəfərdir[16]. Argentinadakı Məsihin Şagirdləri Kilsəsi 1906-cı ildə və ondan sonrakı illərdə ABŞ-dan gələn missionerlər tərəfindən yaradılmışdı. 1959-cu ildə müstəqil kilsə statusu əldə etdi. Bütün tarixi boyu o, kilsələrin birliyi və xristian xidmətinə diqqət ayırmaqla təriqətin mahiyyətinə sadiq qalmağa çalışmışdır. Bu gün Məsihin Şagirdləri bir-birindən çox uzaqda olan iki əyalətdə öz xidmətini həyata keçirirlər: Buenos Ayres və Çakoda. Buenos Ayresdə dörd yığıncaq var, onlardan ikisi Metodist Kilsəsi ilə birgə yığıncaqdır. Çako bölgəsində "Ümid" ekumenik icması da Metodist kilsəsi, İslahat kilsəsi və River Plate Evangelist Kilsəsi ilə birlik təcrübəsinin bir hissəsidir. Bu yığıncaq ümumi bir missiya layihəsinə cavabdehdir. Milli kontekstdə yığıncaqlar kiçikdir və buna görə də Şagirdlər Kilsəsi ekumenik səhnədəki ən kiçik kilsələrdən biridir. Bununla belə, üzvlük rəqəmi yığıncaqların məşğul olduğu müxtəlif fəaliyyətlər vasitəsilə kilsənin yaxından əlaqəli olduğu şəxslərin və ailələrin sayını əks etdirmir. Məsihin Şagirdləri, həmçinin digər kilsələrlə birlikdə yaratmağa kömək etdiyi müxtəlif ekumenik təşkilatlar vasitəsilə öz nəzarət və xidmət öhdəliklərini üzərinə götürürlər. Bu təşkilatlara Çako bölgəsində yerli əhali ilə işləyən Birləşmiş Missiya, İnsan Haqları Uğrunda Ekumenik Hərəkat, Xristian Təhsili Şurası, Ali İlahiyyat Tədqiqatları İnstitutu və Miqrantlara və Qaçqınlara Yardım Komissiyasını qeyd etmək olar. Argentina iqtisadiyyatı uzun müddətdir ki, böhran içərisindədir. Kilsə davamlı olaraq yeməkxanalar, qayğı mərkəzləri, tibbi yardım və mikro müəssisələrin yaradılması vasitəsilə öz icmalarının ehtiyacı olan üzvlərinə kömək etmişdir

12-ci əsrdə İtaliyada Peter Valdo tərəfindən əsası qoyulmuş protestant təriqətlərindən olan **Valdensian kilsəsi** də Argentinada yayılmışdır. Rio de La Plata

Valdensian Kilsəsində təxminən 40 icma və Uruqvay və Argentina arasında paylaşılan 15.000 üzv var. İtaliyadan ilk Valdensian kolonistləri Cənubi Amerikaya 1856-cı ildə milyonlarla italiyalının xaricə mühacirət etməsinə səbəb olan ciddi iqtisadi böhran illərində gəldi. İlk keşiş Migel Morel 1860-cı ildə köç etdi və bu da, Valdensiya cəmiyyətinin özünü qurduğunun və yeni qitədə qalmaq niyyətinin göstəricisi idi. Uruqvaydakı Valdensiya koloniyası ilk kilsəsini və liseyini 1888-ci ildə tikdi. XX əsrin əvvəllərində, İtaliya immiqrasiyasının tarixi pik həddinə çatdığı zaman, kilsə Argentinanın Buenos-Ayres şəhərində də özünü qurdu. 1950-ci illərdə milyonlarla argentinalı və uruqvaylı kəndlərdən şəhərlərə köçdü. Kənd təsərrüfatı koloniyasını Valdensian icması ilə yaxından müəyyən edən kənd modelində təşkil edildiyi üçün bu hadisə kilsə daxilində böhrana səbəb oldu.

Rio de La Plata Valdensian Kilsəsinin həyatına dramatik təsir göstərən ikinci hadisə 1970 və 80-ci illərdəki hərbi diktaturalar dövrü idi. Həmin fırtınalı dövrlərdə kiçik Valdensiya icması kilsə ilə dövlət arasında ayrılıq prinsipini bir daha təsdiq etməli və Valdensiya ənənəsinin əsasları olan İncili təbliğ etmək azadlığını müdafiə etməli idi. 1977-ci ildə təşkil edilən sinodda (ruhanilər məclisi) təsdiqləndi: "İncil prinsipləri əsasında qurulan Kilsə, müvəqqəti gücdən imtiyazlar gözləmədən və vətəndaş cəmiyyətinin öz təşkilatına müdaxiləsinə və ya məhdudlaşdırılmasına razılıq vermədən, iman və qayda-qanunları etiraf etmək üzərində dayanır"[3].

Yeni əsrin əvvəllərində Rio de La Plata Valdensian Kilsəsinin problemləri ilk növbədə regionun ağır iqtisadi vəziyyəti ilə bağlı idi və buna görə də sosial proqramlara güclü bağlılıq ortaya çıxdı. Kilsə müstəsna olaraq öz resursları və könüllü ianələr hesabına qocalar üçün dörd ev, uşaqlar üçün iki ev, problemli insanlar üçün iki mərkəz və bir xəstəxana açmışdır. Tarixən qonşuya xidmət Valdensian Kilsəsi üzvlərinin fərqli xüsusiyyəti olmuşdur. Bu gün Cənubi Amerika ölkələrinin əhalisinin böyük hissəsini əhatə edən yoxsulluq çarəsizlik və ləyaqətini itirmə hissləri yaradır. Məhz bu çətin vəziyyətdə Rio de La Platadakı Valdens kilsələri Məsihə ümidlərini elan edir və Allahın məhəbbətinə şahidlik edirlər. "[3].

Argentinada mövcud olan digər protestant təriqəti isə **Metodist kilsəsidir.** Argentina Metodist Kilsəsi (İspanca:Iglesia Evangélica Metodista Argentina), Ümumdünya Kilsələr Şurasının üzvüdür və 8,940 üzvü və 123 yığıncağa malikdir. [17]. Kilsənin muxtar olmasına baxmayaraq, Birləşmiş Metodist Kilsəsi ilə bağlıdır.1825-ci ildə Nyu-Yorkdakı Metodist Episkop Kilsəsinin Missionerlər Cəmiyyəti Cənubi Amerikada missiyanın yaradılmasını təklif etdi. 1836-cı ildə baş konfrans Buenos-Ayres və Rio-de-Janeyroda işə başlamağı tövsiyə etdi. Buenos-Ayresdəki missiya başladı və tezliklə kilsə binası tikildi. 1867-ci ilə qədər İncili ispan dilində təbliğ etmək yerli qaydalarla qadağan edilmişdi. Qadağa götürüldükdən sonra Metodist Kilsəsinin işi, zaman keçdikcə digər məzhəblər də bütün ölkəyə yayıldı. Missionerlik hərəkəti sərhədləri aşdı və mərkəzlər Peru, Boliviya, Paraqvay, Uruqvay və Cənubi Braziliyada açıldı. Bütün bunlar daha sonra Cənubi Amerika illik konfransında təşkil edildi. 1884-cü ildə Valdens Kilsəsi ilə əməkdaşlıqla ilk orta məktəb yaradıldı. Bu, ilahiyyat üzrə yevangelist fakültəsinə çevrilən ilk seminariyanın əsası oldu; Lüteran seminariyası ilə birləşərək, Yevangelist Ali İlahiyyat Araşdırmaları İnstitutuna (ISEDET) çevrildi. Uruqvaydakı konfrans River Plate illik konfransından ayrı təşkil edildi. Argentinada iki konfransla davam etdi: biri Argentinanın illik konfransı adını aldı, bir neçə il sonra yaradılan digəri Pataqoniyanın müvəqqəti illik konfransı oldu. Hər ikisi 1969-cu ildə Argentinanın Evangelist Metodist Kilsəsinin bir hissəsi oldu.

Bu kiçik kilsə ekumenik ruhu və sosial şüurluluğu ilə tanınır. Bir neçə təhsil mərkəzi var və yeddi digər kilsə ilə qitənin ən yaxşı teoloji institutlarından birini paylaşır. Onun gündəmində əsas mövzular evangelizasiya və kilsənin inkişafı, sosial ədalət və insan hüquqları uğrunda mübarizədir. Bunun üçün qeyri-peşəkar şəxslərin ixtisaslı rəhbərliyinin inkişafı ilkin şərtə çevrilmişdir. Sosial və missionerlik yerli əhali arasında - şimalda yerli əhali - Toba, cənubda isə Mapuçelər ilə aparılır. Ölkənin müxtəlif bölgələrindəki xristian icmalarında uşaq bağçaları da qurulur. Kilsə bütün Latın Amerikası, Avropa və Şimali Amerikadakı Metodist kilsələri ilə güclü əlaqələr saxlayır. Kilsənin məşğul olduğu ən son problemlər bunlardır: yoxsullaşan əhaliyə

qayğı göstərmək; kilsə üzvü olmayanlara daha mühüm rol vermək; institusional səviyyədə hərəkata aydınlıq gətirən yeni modellər axtarmaq; yeni mənəviyyat və yoxsul sosial siniflərin rolu.

Ümumilikdə isə statiskaya əsasən, 2008-ci ilin məlumatına əsasən argentinalılar 1154 kilsədə ibadət ediblər və bu kilsələrin sayı baxımından çox böyük rəqəmdir. 20 il bundan əvvəl hər kilsəyə heç 700 ibadət edən şəxs düşmürdü. Bu gün isə hər bir kilsəyə 20000 ibadət edən şəxs var. Müasir dövrdə sosioloqların apardıqları araşdırmalara əsasan Buenos Ayresin protestant əhalisi aşağıdakı kimi təsnif oluna bilər: yuxarı və orta təbəqə - 4% evangelist, aşağı təbəqə - 20%-dən çox evangelistdir

# II FƏSİL ARGENTİNADA SİYASİ-SOSİAL PROSESLƏRİN DİN, DÖVLƏT, CƏMİYYƏT MÜNASİBƏTLƏRİNƏ TƏSİRİ

## 2.1. Argentinada dövlət-din münasibətləri

Argentina dünyada katolisizmin geniş yayıldığı ölkələrdən biridir. Bununla belə, gündəlik həyatda Argentina kifayət qədər dünyəvi ölkədir. Argentina Konstitusiyası ölkədə dini etiqad azadlığına təminat verir. Argentina əhalisinin böyük əksəriyyətinin katolik olmasına baxmayaraq, burada digər dinlərin nümayəndələri də yaşayır. Ölkədə sayının az olmasına baxmayaraq, böyük təsir gücünə malik olan yəhudi icması, müsəlmanlar, xristian məzhəblərinin üzvləri və digər dinlərin nümayəndələri təmsil olunur [49, s.77 ].

Konkista dövründə üç əsr ərzində ispan missionerlərinin Argentinaya gəlişi nəticəsində bu ərazidə yaşayan yerli əhaliyə katolik dini təbliğ edilirdi. Argentinada şəhərlərin salınması ilə kilsələr və monastırların əsası qoyulmağa başladı. 1621-ci ildə yezuitlər tərəfindən Latın Amerikası regionunda dördüncü universitet olaraq tanınan Kordoba Universiteti təsis edildi [12, s.397-399]. Argentinanın müstəqillik uğrunda mübarizəsindən sonra (1810-1816) burada əsasən İngiltərə və Almaniyadan gələn iş adamlarının və ixtisaslı işçilərin sayı artdı. Bu dövrdə kilsə ilə dövlət arasında heç bir münaqişə yox idi. 1825-ci ildə Argentina Böyük Britaniya ilə Sülh, Ticarət və Dostluq müqaviləsini imzaladı. Bu müqavilənin şərtlərindən birinə görə Britaniyadan gələnlər üçün din azadlığının təmin edilməsi nəzərdə tutulurdu [12, s. 400]. Bunun nəticəsində ölkədə Anqlikan və Şotland Presviterian kilsələri, bir neçə ildən sonra isə Alman Protestant məbədi tikildi. Bu, Argentinada din azadlığı tarixində əhəmiyyətli bir addım idi, çünki ölkədə ilk dəfə olaraq Katolik kilsəsindən başqa bir dinə qanuni olaraq icazə verilirdi.-Bir müddət sonra San-Xuan əyalətində qubernator devrildi və Dini Azadlıq Aktı ictimai şəkildə yandırıldı. Bəzi yerli liderlər ("caudillos") silahlı mübarizələrində Buenos-Ayresə qarşı bayraqlarında “Din və ya ölüm” şüarı gəzdirirdilər. Həmin dövrlərdə ispan müstəmləkələrində monarxın kilsə üzərində üstünlüyə malik olması fikrinə əsaslanan reqalizm ideyası geniş vüsət almışdır. Əslində, Buenos Ayres,

Bernardino Rivadavianın rəhbərliyi altında, reqalizmin güclü təsiri ilə monastırları sıxışdıraraq və kilsə əmlaklarını müsadirə etməklə “Ruhani İslahatı”-na başladı [12, s. 401]. Müstəqillikdən sonra hökumət özünü Patronaj sisteminin(hakimiyyətdə səlahiyyət hüququ) varisi hesab edirdi, hansı ki Papaların İspan tacını evagelizmi dəstəkləmək üçün tanıyırdı. Yeni yaradılan ölkənin 1856-cı ilə qədər Müqəddəs Taxt-Tac (Vatikan) ilə əlaqəsi yox idi[49].

1853-cü ildə diktator Xuan Manuel de Rosasın devrilməsindən sonra ölkə davamlı və əsaslı Konstitusiya modelinə keçid etdi [6, s.11]. Konstitusiyanı tərtib edərkən ən böyük məqsədlərdən biri dini azadlığı təmin etmək idi. Bununla yanaşı, ingilis, alman, holland və digər millətləri nəzərə alaraq miqrantları cəlb etmək idi. Argentinanın Konstitusiyasının preambulası "Argentina torpağında yaşamaq istəyən dünyanın bütün kişilərini dəvət edir" fikri ilə başlayır və "bütün ağılın və ədalətin mənbəyi olan Tanrının qorunmasına müraciət etməklə" bitir. Eyni zamanda, konstitusiyanı tərtib edərkən dövlət və katolik kilsəsi arasında münasibətdə kompromis həll yolu tapdılar. Bəziləri katolikliyin “Dövlət dini” və hətta “yeganə həqiqi din” kimi tanınmasını tələb edirdilər [49, s.79]. Şübhəsiz ki, o dövrdə bu növ yanaşmaya qarşı çıxan yox idi. Beləliklə, Argentina Konstitusiyasının II maddəsi Federal Hökumətin Roma Katolik Apostol Kilsəsinin ibadətini dəstəklədiyini müəyyən edirdi.

Digər maddələrdə qeyd edilirdi ki, dövlət Müqəddəs Taxt-Tac tərəfindən edilən təyinatlara himayədarlığı qəbul edir, ancaq dövlət kilsənin muxtariyyətinə müdaxilə edə bilərdi. Konqresin yerli hindularla dinc münasibətləri təmin etmək vəzifəsi var idi, həmçinin konqresə başqa dini icmalardan olan nümayəndələrin də daxil olmasına icazə verildi. Yalnız prezident və vitse-prezidentin katolik olmaları, habelə Argentina ərazisində anadan olmaları və ya xaricdə doğulduqları təqdirdə Argentina torpağında anadan olan valideynlərinin olmaları tələb olunurdu. Bütün digər hakimiyyət vəzifələrinə dini mənsubiyyətindən asılı olmayaraq vətəndaşlar seçilə bilərdi. Argentina Konstitusiyasının XIV maddəsinə görə hər bir vətəndaşın dini etiqad azadlığı vardır.

Konstitusiyaya 1860, 1866, 1898 və 1949-cu illərdə dəyişikliklər edilmişdir, lakin kilsə və dövlət münasibətləri məsələsində toxunulmaz qalmışdır [24, s. 531]. Qeyd etmək lazımdır ki, 1949-cu ildə baş verənlər daha çox yeni Konstitusiya ("Peronun Konstitusiyası") kimi qiymətləndirilməlidir, çünki burada sosial hüquqlar, ailə və təhsillə bağlı xüsusi müddəalar qəbul edilmişdi. Müqəddəs Taxt-Tac himayədarlığı aradan qaldırmaq və Konkordata (din ilə sekulyar dövlət arasında olan anlaşma) gəlmək fürsətini qaçırdığına görə təəssüfləndi, baxmayaraq ki Peronist hökumət o zaman dost hesab olunurdu. Buna görə də, iki tərəf arasında olan münasibətlər getdikcə pisləşirdi.

Rosasın süqutundan sonra, yeni prezident Xusto Xosé de Urquiza Buenos Ayres yepiskopluğunun müdaxiləsindən qaçmaq üçün Müqəddəs Taxt-taca sahilyanı əyalətlərdə yeparxiya yaratmağı təklif etdi, lakin Vatikan 1857-ci ildə təklif olunan Konkordatı qəbul etmədi. Demək olar ki, Argentina dövləti ilə kilsə arasında ilk böyük münaqişə 1884-cü ildə prezident Xulio Argentino Roka məcburi universal dünyəvi təhsili və vətəndaş nikah qanununu diktə edən 1420 saylı Qanunu dəstəklədiyi zaman yaranıb [12]. Nəticə etibarı ilə, bu, kilsənin müxalifəti nunsionun(papanın xarici məhkəmə və ya hökumətdəki səfiri) qovulmasına, müxalif yepiskopların uzaqlaşdırılmasına və Rokanın ikinci dövründə yenidən qurulan Vatikan ilə diplomatik əlaqələrin kəsilməsinə səbəb oldu. Daha sonra isə, vətəndaş nikah qanunu 1889-cu ildə Miqel Juarez Selmanın prezidentliyi dövründə təsdiq edilmişdir. Buenos-Ayres arxiyepiskopu Federiko Aneiros kahinlərə sənəd göndərərək kilsə xidmətçilərinə vətəndaş nikahının sadəcə cariyəlik (müasir mənada kəbinsiz birgə yaşayış) olduğunu izah etməyi tapşırdı[25]. Vatikan qanuna müqavimət göstərmək üçün göstərişlər göndərdi; Kordoba kapitular vikarı insanlara qanuna məhəl qoymamağı söylədi və mülki qanuna görə evlənən bir neçə keşiş cütlüklər cəzalandırıldı.

1954-55-ci illərdə general Peron ikinci prezidentliyi dövründə kilsəyə qarşı kampaniyaya başladı [25, s. 224]. Bu kampaniyada əsas məqsəd katolik kilsəsini sıxışdırmaq idi. Hələ ikinci prezidentliyindən əvvəl, 1943-cü ildə dövlət məktəblərində katolik dininin tədrisi dayandırılmışdı. Bundan başqa konqres boşanmış cütlüklərin

yenidən evlənmək hüququnu tanıdı. Konqres eyni zamanda Katolik kilsəsinə aid bütün müddəaları ləğv edərək və “dinin həqiqi azad şəkildə həyata keçirilməsini” təmin etməklə, Konstitusiyaya dəyişiklik etmək üçün Konstitusiya Assambleyasının yaradılmasına səs verdi. Halbuki bu Assambleyaya seçkilər heç vaxt baş tutmamışdı. 1950-ci ilin iyununda Peron anti-katolik (Kilsə tərəfindən mason olmaqda günahlandırılan) Armando Mendez San Martini Təhsil naziri təyin etdi [25, s. 229].

16 iyun 1955-ci ildə Perona qarşı uğursuz çevrilişdən sonra xüsusi dəstələr Buenos-Ayres arxiyepiskopu Kuriyanın binasını və digər yeddi kilsəni yandırdılar. Əsrlik tarixi sənədlər məhv edildi [25, s. 229]. Bir çox keşişlər və sadə insanlar həbs edildi, yepiskopu və katedral kanonunu ölkədən qovdular. İnqilab ilə Peronu devirəndən sonra Müqəddəs Taxt-Tacla ilk razılaşma əldə edildi.

1966-cı il oktyabrın 10-da Argentina ilə Müqəddəs Taxt-Tac arasında səkkiz illik səmərəli danışıqlardan sonra saziş əldə edildi [49, s. 83]. Papa VI Pavel bunu kilsə və dövlət münasibətlərində İkinci Vatikan Şurasının ilk nəticəsi kimi təsvir etdi. Bu münasibətlərin muxtariyyət və əməkdaşlıq üzərində qurulması nəzərdə tutulurdu. Dövlət kilsənin yurisdiksiyasını ölkə ərazisində tanıdı. Konkordat 28 yanvar 1967-ci ildə Müqəddəs Taxt-tacda təsdiqləndi. [49, s. 83]. Vatikana yepiskopları təyin etmək və vəzifədən azad etmək hüququ verən Konkordat, prezidentə yalnız təyinatlara etiraz etmək hüququ verir. Köhnə Patronaj sistemini əvəz edən bu Konkordata görə, kilsə milli ərazidə yeparxiyalar yaratmaq və ya dəyişdirmək, arxiyepiskoplar və yepiskopları birbaşa təyin etmək, yepiskoplar, ruhanilər və ümumilikdə Argentina katolikləri ilə sərbəst yazışmalar aparmaq hüququna malik idi [49, s. 84]. Hökumətin hər hansı “ümumi xarakterli etirazı” varsa, problemin həlli üçün danışıqlar aparılmalıdır. Bu zaman, hökumətin müşahidələr aparmaq üçün otuz günü var və Xarici İşlər Nazirliyi “İbadət Katibi” vasitəsilə ilk iki-üç gündə razılıq verir.

Prezident Raul Alfonsinin (1983-1989) katolik kilsəsi ilə münasibətləri yaxşı deyildi. 1987-ci ilə qədər Mülki Məcəllə ər və arvadın de-fakto boşanmasını tanıyırdı, lakin yenidən nikaha icazə vermirdi [6, s. 5]. Boşanma haqqında qanun 1986-cı ildə Deputatlar Palatası tərəfindən təsdiqləndi. Katolik Kilsəsi Senata onu dayandırması

üçün təzyiq göstərdi, ona səs verənləri müqəddəs mərasimlərdən imtina etməklə hədələdi. Senat nəhayət, 1987-ci ilin 3 iyun tarixində qanunu qəbul etdi [6, s. 6]. Bu illər ərzində kilsə ilə əlaqələr daha da pisləşdi, çünki kilsə qorxurdu ki, yeni Konqresə çağırış məktəblərə dövlət subsidiyalarının dayandırılmasına gətirib çıxaracaq.

Prezident Karlos Menemin (1989-1999) mühafizəkar Vatikan təşkilatları ilə (məsələn, Opus Dei) yaxın əlaqəsi var idi və kilsənin abortla bağlı mövqeyinin qatı tərəfdarı idi. Bu səbəbdən o, Papa II İohann Pavel tərəfindən xüsusi ordenlə təltif edilmişdir [49, s. 89]. İqtisadi tədbirlərinin səbəb olduğu yoxsulluq və işsizlik səbəbiylə görkəmli yepiskoplar tərəfindən şiddətlə tənqid edildi. Prezident Fernando de la Rúa (1999-2001) da dindar katolik idi və kilsə ilə bağlı ciddi problemləri yox idi.

Prezident Nestor Kirşner (2003-cü ildə seçilib), katolik inancına inandığını bəyan edərkən, kilsənin iyerarxiyası ilə tez-tez problemli münasibətdə olub. Kirşner Peronizmin sol mərkəz qanadına aiddir və Katolik kilsəsi ilə uyğun gəlməyən bəzi mütərəqqi fikirlərlə diqqət çəkirdi. 2005-ci ilin əvvəlində səhiyyə naziri Qines Qonzales Qarcia abortun qanuniləşdirilməsini dəstəklədiyini açıqladı və Kirşnerin bu mövzuda susması kilsəni qəzəbləndirdi [49, s. 90]. Prezident Kirşner də Papa II İohann Pavelin dəfn mərasimində iştirak etmədiyi üçün tənqid edilmişdi. 2005-ci ilin oktyabrında Argentina Deputatlar Palatası bütün məktəb sistemini (dövlət və özəl, o cümlədən konfessiya məktəblərini) əhatə edən, təhsil müəssisələrini tələbələrə gender rolları və kontrasepsiya haqqında öyrətməyə məcbur edən Cinsi Tərbiyə Qanununu qəbul etmək üçün addımlar atdığından münaqişə yenidən alovlandı. Bundan başqa, 2010-cu ildə Argentina, ənənəvi Kilsənin tərəfdarları ilə homoseksual hüquqların müdafiəçiləri arasında zorakılığa çevrilən ağır tənqidlərə və etirazlara baxmayaraq, eynicinsli evliliyi qanuniləşdirən üçüncü katolik ölkə oldu.

2008-ci ilin dekabrında Salta əyalətinin qanunverici orqanı həm dövlət, həm də özəl məktəblərdə dinin tədrisini məcburi edən mübahisəli qanun qəbul etdi [49, s. 91]. Bu addım dini azlıqlar və insan haqları təşkilatları tərəfindən hiddətə səbəb oldu və onlar dünyəvi təhsil sisteminə çağırışlar etdilər. Qanunun tərəfdarı olan qubernator Xuan Manuel Urtubey tez bir zamanda dini dərslərin bütün inanclara yönəldiləcəyini

və "inanclarından asılı olmayaraq" bütün tələbələrin iştirak edəcəyini qeyd etdi [6, s. 9]. Bununla belə, tədbirin qanuniliyi ilə bağlı şübhələr qalmaqdadır, çünki o, Urtubeyin 1998-ci ildə şərti təsisçi seçilərkən yazmağa kömək etdiyi Əyalət Konstitusiyasının özü ilə ziddiyyət təşkil edir. Bundan başqa, 2011-ci ildə bir çox siyasi qruplar keçmiş qubernator Xuan Karlos Romeronu, hazırkı qubernator Urtubeyi və Saltadakı digər siyasi hərəkatları LGBT azlıqlarla bağlı fikir və siyasətlərə görə tənqid edirdilər. Onlar Urtubəydən fahişəliyi qadağan edən qanunların ləğvini tələb edirdilər. Bununla belə, 2013-cü ildə Urtubəyin ofisi Saltanı gender kimliyini qəbul edən ilk əyalətlərdən birinə çevirməklə müxtəlif LGTB təşkilatları tərəfindən tərifləndi. Həmçinin, 2012-ci ilin martında Argentina Ali Məhkəməsinin qərarından sonra Salta cəzalandırılmayan abortları tənzimləyən ilk əyalət oldu. Urtubey şəxsi əqidəsinə baxmayaraq bu qanuna icazə verdi[45]. Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, Salta əyalətinin qubernatorı olaraq Urtubey bir tərəfdən kilsə leyhinə qərarlar qəbul etmiş və LGBT azlıqları ilə bağlı tənqidi fikirlər söyləmişdir.Digər tərəfdəndə o, liberal qanunlar addımlar ataraq gender kimliyini qəbul etmiş və abortu leqallaşdıran qanun qəbul etmişdir.

Ümumilikdə, **dini azadlığın** demokratik zamanlarda hərbi xunta dövrünün bitməsi ilə inkişaf etməyə başlayır. Argentina demokratik respublika yoluna 1983-cü ilin dekabr ayında Alfonsinin hakimiyyətə gəlməsi ilə qayıdır. Yeni formalaşmış milli konqres tərəfindən qəbul olunan ilk qanunverici akt San Xose de Kosta Rika razılığının, BMT-nin müki və siyasi, iqtisadi, sosial, mədəni hüquqlara dair razılığı və insan hüquqlarına aid olan digər sənədlərin ratifikasiya olunması idi . Əlbəttə, Argentina Respublikası tərəfindən daha sonra qəbul olunan sənədlər dərhal imzalanmış və ratifikasiya olunmuşdur. Bu müqavilələrdən çoxu dini azadlığın qorunmasına həsr edilmişdir. Bu sənədlərin çox boyük qanuni əhəmiyyəti vardı, belə ki, qanunverici orqan onu qəbul etdikdən sonra, onların hər biri nəzərə alınmalı idi.

1994-cü ildə Argentina Konstitutsiyası 1860-cı ildən bəri ən böyük islahata məruz qalmışdı. Dini azadlığa dair qəbul olunmuş ən mühüm addım himayədarlıq maddəsinin ləğv edilməsi idi. Bundan əlavə dini diskrimasiyalara səbəb olacaq bir

sıra dillər də konstitutisya tərəfindən ləğv edilmişdi. Misal üçün, president və ya vitse-prezidentin Katolik kilsəsinin nümayəndəsi olması tələbi bu düzəliş əsasından ləğv edilmişdir. Prezident və vitse president də öz növbəsində Allah, bizi yaradan və müqəddəs İncil qarşısında and içmək öhdəliyindən də azad oldular. Bunun əvəzinə isə prezidentin və vitse-prezidentin and içməsi "dini inanca" əsasən həyata keçirilirdi.

1994-cü il konstitutsiya islahatı beynəlxalq razılıqları və müqəddəs taxt tacın (Vatikan) qanunlardan daha üstün mövqeyə malik olması fikrini qəbul etmişdir. Konstitutsiya istənilən halda insanlar arasında diskriminasiyanı də ləğv edirdi[25]. Konstitutsiyada həmçinin insanları alçaldacaq, onların dini inancını təhqir edəcək, dininə görə kimisə təqib edəcək insanların tutduqları əməldən asılı olaraq, ya cinayət məsuliyyətinə cəlb olunmasını, ya da nəzərdə tutan akt qəbul olunmuşdur. Əmək bazarında isə insanları dininə görə ayrı seçkiliyə məruz qoyan şəxslər isə çox ciddi cinayət törədir və onlar xüsusi kompensasiya ödəməlidir. İctimai sektorlarda və dövlət qulluğunda da dini və irqi ayrı-seçkilik yol verilməzdir. Əlbəttə, bu dini qruplar diktatura zamanı təqibə məruz qalmışdırlar. Hazırda isə, dövlət dini azadlığı təmin etmək üçün kilsə və dini icmalarla əlaqələr qurmaqdadır.

Dini azadlığın təmin edilməsinə baxmayaraq, ölkədə katolik kilsəsi digər dini məzhəblərdən üstün mövqedədir. Hal-hazırda, Argentina Konstitusiyasında kilsə-dövlət münasibətləri ilə bağlı iki müddəa var. Konstitutsiyanın bu iki müddəası 2 və 17-ci bölməsində qeyd edilib və bir -biri ilə müəyyən dərəcədə ziddiyyət təşkil edir. Birincisi, 17-ci bölmədə qeyd edilir ki, konstitusiya bütün insanların dini etiqadlarını sərbəst həyata keçirmək hüququnu tanıyır. Digər tərəfdən isə, 2-ci bölmədə isə dövlətin katolik kilsəsinə maliyyə dəstəyi verməsini nəzərdə tutur. Nəticə etibarı ilə, bu müddəa əsasında, illər ərzində dövlət həmin kilsəni bütün digər kilsə və dinlərdən fərqləndirərək subsidiyalar ayırmışdır[40].

### 2.2. Müasir dövrdə Argentinada konfessiyalararası dialoq

Dinlərarası dialoq həm fərdi, həm də institusional səviyyədə müxtəlif dini adət-ənənələrə və mənəvi və ya humanist inanclara malik insanlar arasında əməkdaşlıq, konstruktiv və müsbət qarşılıqlı əlaqəni nəzərdə tutur. Bu, sinkretizm və ya alternativ dindən fərqlidir, bu dialoqda tez-tez yeni inancları sintez etmək əvəzinə, başqalarının dini inanclarının tolerantlığını artırmaq üçün müxtəlif dinlər və ya inanclar arasında anlaşmanın təşviq edilməsi daxildir [22].

Çikaqonun Ekumenik və Dinlərarası Məsələlər üzrə Baş Yepiskopluğu ekumenik, dinlərarası və dinlərarası münasibətlər arasındakı fərqi aşağıdakı kimi müəyyən edir: "Ekumenik" kimi digər kilsə ənənələrinə mənsub xristianlar arasında əlaqə, "inanclararası" kimi İbrahim inanclarının (yəhudi, müsəlman və xristian ənənələri) üzvləri ilə əlaqələr" və"dinlərarası" kimi isə hinduizm və buddizm kimi digər dinlərlə əlaqələr [10]. Buradan çıxış edərək qeyd etmək olar ki, bu qruplaşdırmağa görə Argentinada katoliklik, sonraki sıralarda isə protestantlıq, provaslavlıq, yəhudilik və islam yayıldığına görə ekumenik(katolik və protestant,katolik və provaslav və s.) və inanclararası əlaqələr(katolik və müsəlman, katolik və yəhudi və s.) üstünlük təşkil edir. Bununla belə, dinlərarası münasibətlərin tərifi müxtəlif mənbələrə görə dəyişir və ümumilikdə dinlərarası münasibət və ya dialoq kimi götürmək olar.

Bəşəriyyəti narahat edən qlobal problemlərin qarşısının alınması üçün dinlərarası dialoqun genişləndirilməsi böyük rol oynayır. Qloballaşma prosesi ictimai həyatın bütün sahələri ilə birlikdə dinlərarası dialoqa da əhəmiyyətli təsir edir. Dinlərarası dialoqun əsas prinsipi ondan ibarətdir ki, zorakılıq və münaqişələr qismən məlumatsızlıq və digəri ilə konstruktiv qarşılıqlı əlaqənin olmaması səbəbindən yaranır. Buna görə də, dinlərarası dialoq digərinin dinini başa düşmək sülh və barışığı təşviq etmək üçün əsas strategiyadır [22].

2022-ci ilin 7 fevral tarixində Argentinada xidmət edən pravoslav iyerarxları — Buenos Ayres və Bütün Argentina metropoliti Yakob (Antakya Patriarxlığı), Argentina və Cənubi Amerika yepiskopu Leonid (Moskva Patriarxlığı) və Buenos Ayres və Cənubi Mərkəzi Amerika yepiskopu Kirill (Serb Patriarxlığı) — İspan İncəsənət

Muzeyinin direktoru E. Larret Delfina Elgera ilə görüşdü. Pravoslav arxpastorlarının muzeyi ziyarət etməsinə səbəb müasir argentinalı rəssam Amaya Buketin “Qılınc və xaç” sərgisində muzeydə nümayiş etdirilən İlahi İsa Məsihin ikonasına qarşı küfrlü hərəkətlərinə etiraz olub.

19-cu əsrin rus ikonası “Xilaskar əllə edilməmiş"( The Saviour Not-Made-By-Hands) ekspozisiya müəllif tərəfindən küfrlə "bərpa edilmişdir". "Yaradıcılığı" üçün pravoslav ikonasını əsas seçərək, Xanım Buket Xilaskarın ən saf üzünü bir tutam yunla örtdü və ikonanın kənarlarında təsvir olunan müqəddəslərin üzlərinin əvəzinə yarı qiymətli daşlar yerləşdirdi. Yeni "sənət əsəri" nin adı da tamamilə küfrlə seçildi :"Heyvan Məsih və daş üzlü müqəddəslər". İyerarxlar muzey rəhbərliyinə ünvanlanmış birgə sənəd tərtib edərək, bu cür eksponatların açıq nümayişinin mümkünsüzlüyünü bəyan etdilər, çünki bu, dindarların dini hisslərinə açıq şəkildə təhqir və dünyada qəbul edilmiş əxlaqi və etik normaların pozulmasıdır. Yeparxiya saytının məlumatına görə, hansı dinə mənsub olmasından asılı olmayaraq, müqəddəs sənət və ibadət obyektləri ilə bağlı bu cür hərəkətlərin yolverilməzliyi barədə Argentinanın Mədəniyyət Nazirliyinə də nota göndərilmişdir [20].

Argentinanın Dinlərarası Dialoq İnstitutu, missiyası inanclı insanların anlaşmasını, dinc şəkildə yanaşı yaşayışı və mədəniyyətlərin qarşılaşmasını təşviq etmək olan bir qurumdur. Bununla da, Müqəddəs Ata Fransisə öz yaxınlığını və dəstəyini bildirir [38]. Bu qurum üç böyük monoteist dini birləşdirir, lakin digər dinlərdən olan bütün yaxşı niyyətli insanlar üçün açıqdır. Papa Fransiskin təlimlərindən və davranışlarından ilhamlanaraq, bütün sahələrdə qarşılaşma mədəniyyətini təbliğ etməyə çalışır. Dinlərarası Dialoq İnstitutunda iştirak edənlər qəti şəkildə düşünürlər ki, başqaları - bizimlə eyni fikirdə olmayanlar, başqa inanclara və ya ideologiyalara malik olanlar bizi tamamlayır və zənginləşdirir. Dialoq, konsensus və böyük ortaq məxrəclərin daimi axtarışı sülh və ədalətə nail olmağın əsas yollarıdır [38].

2019-cu ildə Roma Papası Fransisk Argentinanın Dinlərarası Dialoq İnstitutu tərəfindən təşviq edilən toplantının iştirakçılarını qəbul edib. Bu görüşün mövzusu Papa Fransiskin Əl-Əzhərin Böyük İmamı ilə birlikdə 4 fevral 2019-cu ildə Əbu-

Dabiyə səfəri zamanı imzaladığı İnsan Qardaşlığı sənədidir. Sənəd bütün insanları dinlərarası harmoniya istiqamətində işləməyə və "qarşılıqlı hörmət mədəniyyətini" və sülhü inkişaf etdirməyə çağırır. İclas iştirakçılarına müraciətində Papa Fransisk universal xarakter daşıyan bu sənədin "Amerika qitəsində də yayıldığını" qeyd etməkdən məmnun olduğunu bildirib. Papa həmin il fevral ayında İnsan Qardaşlığı üzrə Qlobal Konfransdakı çıxışından sitat gətirərək demişdi: "Alternativ yoxdur: ya gələcəyi birlikdə quracağıq, ya da gələcək olmayacaq. Dinlər, xüsusilə də, xalqlar və mədəniyyətlər arasında körpü yaratmaq kimi aktual vəzifədən imtina edə bilməzlər"...Səmimi və hörmətli dialoqun təşviqinə əsaslanan dinlərarası əməkdaşlıq əsasdır", o əlavə edib [37].

"Sənədin məqsədi dialoq və ümumi əməkdaşlıq mədəniyyətini irəliyə doğru bir yol kimi qəbul etməkdir" - Papa bildirib. O, qardaşlığı "incə rəftar edilməli olan mürəkkəb insan reallığı" kimi təsvir etdi. Papa Fransisk daha sonra müxtəlif suallar verərək onlara cavab tapmağın vacibliyini qeyd etdi: "Bir-birimizə necə qayğı göstərə bilərik? Ekskluziv olmaqdan daha çox inkluziv olmağa necə üstünlük verə bilərik? Dinlərin "parçalanma maneələri deyil, qardaşlıq kanalları" olmasını necə təmin edə bilərik?". Bununla da o, dinləri haqsız yerə nifrət və zorakılıq yaratmaqda ittiham edənlərə cavab olaraq "insan cəmiyyətləri üçün sülh faktoru" olmasının vacibliyini vurğulayıb və bunun əldə edilməsində dinlərarası dioaloqun önəmli rolu var . Papa Fransiskin sözlərinə görə "Dinlər arasında dialoq zəiflik əlaməti deyil" , əksinə, "o, öz səbəbini Tanrının bəşəriyyətlə dialoqunda tapır"[37]. Buenos-Ayresdəki dini liderlər Berqoglionun Buenos Ayres Böyükşəhər katedralında dinlərarası dialoqları və mərasimləri təbliğ etdiyini qeyd etdilər. Məsələn, 2012-ci ilin noyabrında o, Yaxın Şərqdəki münaqişələrin sülh yolu ilə həlli üçün dua etmək üçün yəhudi, müsəlman, yevangelist və pravoslav xristian dinlərinin liderlərini bir araya gətirdi. Papa Fransiskin seçilməsi Argentinadakı yəhudi liderlərini həyəcanlandırdı, onun pontifikliyi dövründə katoliklik və digər dinlər arasında isti münasibətləri və açıq dialoqu inkişaf etdirməyə davam edəcəklərini proqnozlaşdırırdılar. Yəhudi ravvini Alexandro Avruc Berqoglionun dinlərarası dialoqa marağını və dini fikir ayrılıqlarını aradan qaldırmaq

öhdəliyini yüksək qiymətləndirdi. O, "Associated Press"ə müsahibəsində xatırlatmışdır ki, Papa Fransiskin digər dinlərlə dialoq üçün çox dərin qabiliyyəti var [18]. Əlavə olaraq, Argentina-İsrail Qarşılıqlı Assosiasiyasının prezidenti Guillermo Borger, Bergoglionun Argentinanın ən pis terror aktı, 1994-cü ildə hələ də üstü açılmamış və 85 nəfərin ölümünə səbəb olan partlayış yerində yenidən qurulan dərnəyin baş qərargahına tez-tez gəldiyini söyləmişdir. Frensiskə xüsusilə yaxın olan ravvinlərdən biri də Abraham Skorkadır. Onların din, siyasət və sosial məsələlərlə bağlı dialoqları 2010-cu ildə "Göylərdə və Yerdə" adı ilə dərc olunub [18].

Papa seçildikdən qısa müddət sonra o, "körpülər qurmaq" və "bütün insanlar arasında həqiqi dostluq əlaqələri" yaratmaq yolu kimi dinləri daha çox dinlərarası dialoqa çağırıb. O, əlavə etdi ki, "inanmayanlarla əlaqəni gücləndirmək çox vacibdir ki, bizi ayıran və incidən fikir ayrılıqları heç vaxt qalib gəlməsin" [38]. O bildirib ki, "pontiff (Papa)" titulu "körpü qurucusu" mənasını verir və onun arzusudur ki, "aramızda olan dialoq bütün insanları birləşdirən körpülərin qurulmasına elə bir şəkildə kömək etsin ki, hamı bir-birini düşmən, rəqib deyil, qarşılanmalı və qucaqlanacaq bir qardaş və ya bacı kimi görsün" [37]. Həmçinin, Argentinanın ən görkəmli müsəlman liderlərindən biri olan Ömər Abboud demişdir: "Müqəddəs bir müsəlman, sadiq bir müsəlman kimi mən Berqoglio kimi bir xristianı müasir dünyanın mənəvi lideri kimi görürəm"...Hər birimizin şəxsən inandıqlarından əlavə, o, İbrahimi dinlərinin mərkəzi dəyərlərini təmsil edir" [33]. Bundan başqa, 24 may 2014-cü ildə Roma Papası Fransisk Yaxın Şərq turunun başlanğıcında "müsəlmanlar və yəhudilər ilə əlaqələri gücləndirmək, eləcə də xristianlıqda çoxdankı ixtilafı aradan qaldırmaq məqsədi ilə" İordaniyaya gəlib. Əlavə olaraq, 2016-cı ildə keçirilən sorğuda Frensis yəhudilərin demək olar ki, üçdə ikisi, həmçinin protestantların və dinsizlərin əksəriyyəti tərəfindən müsbət qiymətləndirilib [38].

9 avqust 2005-ci ildə o vaxtkı kardinal Xorxe Mario Berqoglio (indiki Papa), yəhudi icmasının başçıları və Argentina Respublikasının İslam Mərkəzi terrorizm və fundamentalizm əleyhinə bəyannamə imzaladılar [48]. 2016-cı ilin 2 iyununda Buenos-Ayresin Qanunverici orqanı əhəmiyyətli səs çoxluğu ilə Argentinanın

paytaxtını "Dinlərarası Dialoq Şəhəri" elan edən qanunu qəbul etdi. Qanun şəhəri "müxtəlif dini ənənələrə mənsub insanların, icmaların və qurumların harmoniya içində birgə yaşadığı, dini müxtəlifliyin zənginliyinə dəyər verdiyi, ortaq ümumi dəyərləri təbliğ etdiyi və münasibətləri gücləndirmək üçün dialoq, düşüncə və əməkdaşlıq fəaliyyətləri yolu ilə qurduğu mühit" hesab edir. Avqustun 9-nu "Dinlərarası Dialoq Günü" kimi qeyd edən təşəbbüs, qanun kimi qəbul edilməsində əsas rol oynayan Buenos-Ayres Dinlərarası Dialoq İnstitutunun prezidenti və 2013-cü ilin noyabrında Vyanada keçirilən KAICIID (Kral Abdullah bin Əbdüləziz Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzi) Qlobal Forumunun iştirakçısı Omar Abboud tərəfindən irəli sürülüb. Abbud, Latın Amerikası Yəhudi Konqresinin (CJL) icraçı direktoru və KAICIID Məsləhət Forumunun üzvü Klaudio Epelman ilə bir çox layihələrdə işləyib [15].

Buenos-Ayres şəhərində Müəssisələr və Kultların baş direktoru Federiko Puqliesenin sözlərinə görə, şəhər öz küçələrində və gündəlik həyatında göstərir ki, müxtəlif icmalar dinc yanaşı yaşayır və çoxluğu ilə bizi tərbiyə edən və Buenos-Ayres mədəni zənginliyi ilə əsl görüş və dinlərarası dialoq şəhəri olduğunu təsdiqləyir [48]. O qeyd edir ki, Buenos-Ayresi dialoq və görüşlər şəhərinə çevirməyə davam edən bir gündəm yaratmaq üçün hökumət müxtəlif sahələr ilə fikir mübadiləsi aparmaqda davam edirlər. 2017-ci ildə Latın Amerikası və Karib hövzəsinin Dinlərarası Birlikdə Yaşayış Zonası kimi bəyannaməsinin imzalanmasında onun böyük rolu olmuşdur [48]. Əlavə olaraq, şəhər tərəfindən bir çox digər layihələr təşviq edilir və həyata keçirilir: Dinlərarası Dialoq Forumları bunun bariz nümunəsidir. Dialoqu davam etdirmək üçün həyata keçirdikləri digər proqram 10 illik yubileyini qeyd edən və hər ayın birinci və üçüncü cümə günləri keçirilən "İbadət yerlərinə bələdçi ziyarətlər" proqramıdır. Bu yolla onlar şəhərdə olan 900-dən çox məbədi ictimailəşdirməyə çalışırlar. Eyni çərçivədə, üç ildir təşkil edilən Məbədlər Gecəsi (La Noche de los Templos) proqramı sinaqoqların, məscidlərin, kilsələrin və məbədlərin qapılarını bütün qonşulara açdığını bildirilir.

Bundan əlavə, Argentinada müxtəlif dini ənənələr arasında azadlığı və dialoqu təşviq edən çoxlu sayda institutlar var. Bunlara misal olaraq Argentina Dini Azadlıq Şurası (CALIR), Ali Dini Araşdırmalar İnstitutu (ISER), Birləşmiş Dinlər Təşəbbüsü (URI)və Argentina Yəhudi-Xristian Qardaşlığını göstərmək olar. Həmçinin hökumət səviyyəsində, müxtəlif əyalət və bələdiyyə hökumətləri dinin əhəmiyyətini dərk edərək, onların missiyası əksər hallarda münasibətlər institutlarını və yerləşdikləri ərazinin müxtəlif dini icmaları ilə dinlərarası dialoqu saxlamaq və inkişaf etdirmək olan ibadətlərə həsr olunmuş sahələrə malikdirlər [27]. Eləcə də, Argentina 2021-ci ildə "Sülhə aparan yol" adlı IV Ümumdünya Mədəniyyətlərarası və Dinlərarası Dialoq Konqresinə ev sahibliyi etdi və bu "Argentina 2023-2053-cü illərdə transformasiyanı düşünərək" şüarı altında baş tutdu. İclas Buenos-Ayresdə 3-4 noyabr tarixlərində ölkədə mövcud olan müxtəlif konfessiyaların ali dini orqanlarının çıxışı və ölkənin və dünyanın akademik, diplomatik, siyasi, ictimai xadimlərin iştirakı ilə baş tutdu [47]. Görüş iştirakçıları arasında Cənubi Amerikanın 5 keçmiş prezidentləri Eduardo Duhalde (Argentina), Luis Lacalle (Uruqvay), Rikardo Laqos (Çili), Fernando Kardoso (Braziliya) və Federiko Franko (Paraqvay), həmçinin Buenos-Ayresin nazirləri Fernan Quiros və Soledad Acuna da iştirak etdilər [47]. Müzakirə olunan əsas mövzulardan bəziləri isə bunlardır: qaçqınlar və miqrantlar; təhsil, humanitar yardım, dini azadlıq, narkomaniyanın qarşısının alınması və psixi sağlamlıq, qadınlar və din, Latın Amerikasında demokratiya, köməkli intihar(başqasının köməyi ilə intihar), evtanaziya və s.

11 sentyabr, 2001-ci il hadisələrindən sonra dünyanın bir sıra aparıcı KİV-ləri, xüsusilə də ABŞ-da fəaliyyət göstərən media islam, müsəlmanlar və ərəb əhalisinə qarşı mənfi fikir formalaşdırmağa başladılar. Bu fikirlər ABŞ, Avropa və Latın Amerikasında da insanlar arasında müəyyən fikirlərin formalaşmasına səbəb olmağa başladı. Jurnalistlər həmçinin bu regionlarda islama qarşı olan bu münasibətlərdən ərəblərin əziyyət çəkdiyini bildirirdi. Protestant keşişinin oğlu olan Franklin Qraham islamı hətta "şeytan və pis niyyətli din" adlandırmışdı. Dünyada gedən bu tendensiya Latın Amerikasından da yan keçmədi. 11 sentyabr hadisələrindən öncə Argentinada iki

böyük terror aktı olmuşdur. 1992-ci il İsrail səfirliyi qarşısında olan və 29 nəfərin həlak olması ilə nəticələnən partlayış və 1994-cü ildə 100 nəfərin ölməsinə səbəb olan yəhudi icmasının baş katibliyinə qarşı edilmiş terror aktı. Məsuliyyəti heç bir təşkilat öz üzərinə götürmür, lakin iddia edilir ki, bunu İran dəstəyi ilə fəaliyyət göstərən Hizbullah təşkilatı edib. Yuxarıda sadalanan faktlara baxmayaraq, Argentinada müsəlman, yəhudi və katoliklər dinlərarası dialoqda və qarşılıqlı anlaşmalarında eyni maraqlara sahib idilər. Sülh və dialoq naminə bir sıra görüşlər keçirilmiş, razılaşmalar imzalanmışdır. Bu görüşlərdə həm sünni, həm şiələr, yəhudi və xristianlar birgə təmsil olunurdular. Argentina müsəlmanları dünyada onlara qarşı baş qaldırmış bu cür mənfi mövqeyə qarşı sülhməramli alternativlər nümayiş ediblər.

Müsəlmanlarla yəhudilər arasında qarşılıqlı əlaqə Argentinada daima mövcud olmuşdur. Belə ki, onilliklər ərzində onların iqtisadi, hətta biznes əlaqələri olmuşdur. Braziliya və Çili üçün bu münasibətlər eynidir. Lakin Meksikada bu tam fərqlidir. Burdan belə bir nəticə çıxartmaq olar ki, ərəb ölkələrindən gələn müsəlmanlar, Suriya, Livan və Avropadan gəlmiş yəhudilər Argentinada eyni çətinliklərlə qarşılaşmış və bunların öhdəsindən gəlmək üçün əməkdaşlıq etmişdirlər və bu ənənə Argentinada əsrlər ərzində mövcud olmuşdur. Mərkəzi Amerikada isə bu məsələ belə deyil. 19-cu əsrin sonunda fələstinlilər ora ilk öncə gəlirlər və onlar xristian dininə etiqad edirdilər. Yəhudilər isə bu qitəyə 1930-cu ildən sonra gəlirlər. Yəhudilər Fələstin ərazisində Yəhudi dövlətinin qurulması ilə əlaqədar olan Zionist oyanışı barədə razılığa gəlmişlər, fələstinlilər isə hər zaman Fələstinə öz dövlətləri olduqlarında qayıtmaq istədiklərini bəyan etdilər. Məhz bu səbəbdən bu iki icma arasında vəziyyət hər zaman gərgin olmuşdur [19].

Argentinadakı müsəlmanlar isə sosial strukturun ayrılmaz hissəsini təşkil etmişlər, məhz bu səbəbdən burada rasizm və ya hər hansı ayrı-seçkilik mövcud olmamışdır. Hər halda, bir az da olsa Argentina KİV-lərində islama qarşı hansısa səviyyədə tənqidin səsləndiyinin şahidi oluruq. Bunun səbəbi ya məlumatsızlıq, ya da laqeydlik idi. Belə deyilirdi ki, Argentinada heç bir müsəlman icması yoxdur, amma əslində isə: sünni, şiə, ələvi və druzlər (Qulat islam birliyinin nümayəndələri ərəb

dillidirlər və Qərbi Asiyada yaşayırlar). İlk iki dini icma (sünni və şiələr) heç də əsl müsəlman olmadıqlarına görə tənqid olunmurdular. Ölkədə müsəlmanların statistik sayı tam məlum deyil, lakin onların böyük hissəsinin ərəb etnik qrupuna məxsus olduqları üçün ərəb əsilli olduqları məlumdur. Ərəb miqrantlar Argentinaya 19-cu əsrin ikinci yarısından başlayaraq, Suriyadan gəlməyə başlamışlar. 1850-1860-ci illərdə miqrantların birinci dalğası 1870-1914-cü ildə isə ikinci dalğası ölkəyə gəlmişdir. Üçüncü dalğa isə 1919-1926-cı illəri əhatə edir. Miqrantlar ölkənin bütün ərazisinə yayıldılar, lakin əsasən paytaxt və eyni adı daşıyan əyalətdə məskunkaşmışdırlar[39]. Müsəlmanların Argentinadakı sayına dair məlumatlar dəqiq deyil, bəzi mənbə bunu 900000 bəzisi isə 450000 olduğunu bildirir. Bunlar çox mühüm məlumatlardır, ən azından illər ərzində yəhudi və müsəlmanlar, daha sonra isə xristian və müsəlmanlar arasında münasibətlər illər ərzində yüksələn xətlə inkişaf etmişdir. Bu hal Braziliya və Çili üçün də eynidir. Argentinada dinlərarası sülhə nail olmaq üçün 2002-ci ildə yəhudi və ərəblər Ərəb Federasiyası adlı siyasi təşkilatda bir araya gəlmişlər[19]. Qeyd etmək lazımdır ki, bu təşkilat dini deyil, siyasi önəmə malik idi. Argentinanın o zamanki prezidenti Eduardo Duhalde bu yığıncaqda iştirak etməklə bu sənədə rəsmi şəkil vermişdir. Argentinanın yəhudi icması və Bütöv Ərəb Federasiyası Argentinadan İsrail-Fələstin münaqişəsinin həll olunması üçün yaxından iştirak etməsini təklif etmişlər. Onlar birgə bəyan etmişdirlər ki, onların hər ikisi sülhün təmin olunmasında maraqlıdırlar və münaqişənin həllindən müharibə variantını inkar edirlər.

Mötədillik, tolerantlıq və qəbulla bağlı müqəddəs Qurani Kərimdə çox təsirli və gözəl ifadələr mövcuddur. Məhz bu ifadələr bir çox müsəlmanlara dinlərarası dialoq, mötədillik və tolerantlıq fikrini yaymağa imkan vermişdir. Bu gün bir çox ölkələrdə, eləcə də müsəlman ölkələrində belə konfessiyalararası dialoqlar mövcuddur. Hindistan, Nigeriya və İndoneziya kimi müsəlmanların sayı çox olan ölkələrdə belə bu ziddiyyət mövcuddur. Çin, Vyetnam, Şimali Koreya, Gürcüstan, Şri Lanka, Nepal və Butan kimi ölkələrdə müsəlmanlar təqibə məruz qalır. Bu səbəblə, BMT Baş Assambleyası 1981-ci ilin noyabr ayının 25-də dini baxımdan bütün diskriminasiyaları və dözümsüzlüyü rədd edirdi. Dini təqib tendensiyası, regionda yalnız bir dinin

hakimliyi, dominant dinin əsas tutulması, dini ekstremizm və s. bağlı məsələlər dini tolerantlığın reallaşmamasına səbəb olur.

Argentinada dinə əsaslanan nə təqib, nə də dini dözümsüzlük yoxdur. Argentinada həm ərəb xristianlar, müsəlman ərəblər və yəhudi icması aqresiyaya qarşı deklorasiya imzalamışdır. Argentinada dinlərarası dialoq Katolik kilsəsinin təşəbbüsü ilə başlamışdır. Onlar həmçinin dövlətlə əlaqə qurmuş və hakim dairələrə öz dini inancları haqqında məlumat vermişlər. Dövlətin müsbət reaksiyası dinlərarası dialoqun genişlənməsinə səbəb olmuşdur.

1998-ci ildə yaranmış və mərkəzi Buenos Ayresdə yerləşən Latın Amerikasında İslam Müəsisəsi təşkilatı Latın Amerikasında mövcud olan bütün islam müəssisələrinin çətiri funksiyasını daşıyır. Konfranslar və görüşlər təşkil edən təşkilatın əsas məqsədi dünyanın bu hissəsinə islam mədəniyyətini yaymaqdan ibarətdir. Qvatemala, Peru, Argentinada konfranslar təşkil olunurdu. Təşkilatın digər işi ispan dilində kitabların, audio ve video disklərin hazırlanıb islam həqiqətlərinin yayılması idi. Fəaliyyətinin nəticəsi kimi təşkilat 2003-cü ildə Argentina xarici işlər nazirliyi tərəfindən Con Paul II papanın hakimiyyətinin 25-ci il dönümünə dəvət edilmişdi. Bu, Argentinada dinlərarası dialoqun hansı səviyyədə olduğunun göstəricisi idi. Bundan əlavə, təşkilat Braziliya, Ekvador, Honduras, həmçinin beynəlxalq səviyyədə (Səudiyyə Ərəbistanı ) və s. kimi ölkələrdə fəaliyyət göstərmişdir. Bu və ya digər faktları əsas gətirərək söyləmək olar ki, Argentinada müsəlman və yəhudilərə qarşı heç bir diskriminasiya yoxdur. Bu din qruplarının mənsubları Argentinada din və birlik içində yaşamışlar. Katolik, yəhudi və müsəlmanlar bir-birilərini daha yaxşı anlamaq və dünyada sülhə nail olmaq üçün dini dialoqda maraqlı olduqlarını bildirmişlər. Əsrlər ərzində bu üç din qrupu dialoqun keçirilməsində maraqlı olmuşlar və bu da Latın Amerikasını fərqli bir regiona çevirmişdir.

Müsəlmanların Latın Amerikasında iki böyük mədəni idarəsi vardır: Argentina İslam Mərkəzi və Latın Amerikası İslam Birliyi təşkilatı. Bu təşkilatlar həmçinin dinlərarsı dialoq və sülh prosesinə də cəlb edilmişdir. Dinlərarsı dialoqu formalaşdırmaq üçün Argentinada hər üç dinin nümayəndələri sülh və anlayış üçün

daimi komissiya yaradıblar. Xristianlarla müsəlmanlar arasında olan dialoqun sübutu kimi Papa Fransizin Misirə səfəri və sultan Malik al-Kamillə söhbəti dinlərarası dialoq üçün yeni bir mərhələ olmuşdur. Argentina dövləti də dinlərarası dialoqun həyata keçirilməsində başlıca rol oynayır. Yuxarıda da qeyd edildiyi kimi, 1992-94-cü illərdə Argentinada baş verən terror hadisələri və 11 sentyabr hadisələri Argentinada müsəlmanlara olan münasibəti dəyişdi. Bütün dünyada olduğu kimi, Argentinada da islam, müsəlmanlar və ərəblər tənqid olunmağa başladılar. Məhz bu səbəbdən Argentinada olan müsəlmanların islamın sülh, anlayış və tolerantlıq dini olmasını daha aydın ifadə etmək üçün səy göstərdilər. İslam təşkilatları jurnal, radio, TV, qəzet, müsahibələr vasitəsilə bu öhdəliyi yerinə yetirirlər. Onlar həmçinin terrorizm, rasizm və ayrı-seçkiliyin bütün formalarını inkar və rədd edir

### 2.3. Argentinada dini azlıqlar və onların cəmiyyətə inteqrasiyası

Argentinada dominant katolik dini və yetəri qədər nüfuza malik olan protestantlıqdan əlavə olaraq da islam, yəhudi, buddizm, hinduizm və digər dini azlıqlar mövcuddur. Onların Argentinaya mühacirəti müxtəlif zamanlara təsadüf edir və cəmiyyətə inteqrasiya olmağa çalışmışlar.Dini azlıqlardan biri **provaslav kilsəsinin** üzvləridir. Argentinada ilk pravoslav xristianlar daha sonra - 1860-cı illərdə ölkəyə gəlməyə başladılar. Bunlar Osmanlı İmperiyasındakı müsəlmanların təqibindən qaçan suriyalılar və livanlılar idi. 1880-ci illərin əvvəllərində buraya xeyli sayda yunanlar və slavyanlar, əsasən də katoliklərin təzyiqi ilə Avstriya-Macarıstan torpaqlarını tərk etmək məcburiyyətində qalan dalmatiyalılar və serblər, bir az sonra isə rumınlar və bolqarlar gəlməyə başladılar. Katolikliyin hökm sürdüyü ölkədə pravoslav kilsələrinin olmaması onların maraqlarını pozurdu. 1 oktyabr 1887-ci ildə az sayda rusla da daxil olmaqla yerli pravoslavlar Buenos-Ayresdə pravoslav kilsəsi açmaq xahişi ilə İmperator III Aleksandra müraciət etdilər. Rusiyanın Argentinadakı səfiri A.S.İoni və Müqəddəs Sinodun Baş Prokuroru K.P. Pobedonostsevin iştirakı ilə Cənubi Amerikadakı ilk Pravoslav kilsəsi 1888-ci il iyunun 14-də Buenos-Ayresdəki şəxsi evdə İmperator missiyasına əlavə olaraq açıldı. 1889-cu il yanvarın 1-də bu qitədə ilk

pravoslav liturgiyası qeyd olundu və dərhal bir neçə vəftiz, sonra nikahlar həyata keçirildi[55]. Ümumi inanc mədəni və milli maneələri keçdi və bütün millətlərin pravoslavları burada birlikdə dua etdilər.

1891-ci ildə keşiş Konstantin İzraztsov (1865-1953) Buenos-Ayresdəki kilsənin rektoru təyin edildi. İştirak etdiyi ilk fəaliyyətlər arasında tam hüquqlu kilsə binasının tikintisi, eləcə də kilsə məktəbinin açılışı oldu. İmperator II Nikolay Konstantini atanı qəbul etdi və Argentinada məbədin yaradılması üçün öz vəsaitindən 5000 rubl bağışladı. İmperator Mariya Fedorovna da kilsəyə hədiyyə etdi, həmçinin əsas donor verənlərin arasında arxiyeskop Con Kronstad, P.P. Botkin və D.F. Samarin də var idi. Bu vəsaitlərlə, eləcə də Argentina pravoslavlarının ianələri ilə 1898-ci il dekabrın 6-da məbədin tikintisinə başlanıldı və üç il sonra başa çatdı. 23 sentyabr 1901-ci ildə Möcüzə İşçisi Müqəddəs Nikolay adına taxtlarla Müqəddəs Üçlük Kilsəsi və Müqəddəs Məryəm Magdalena təntənəli şəkildə təqdis edildi. Kilsə şəhərin tarixi mərkəzində gözəl bir yerdə tikilmişdir. Təntənəli təqdis mərasimində Argentinanın o vaxtkı prezidenti Xulio Roka iştirak edirdi. Kilsədə uşaqlara Tanrı qanunu və dualar öyrədilmiş və hər birinin öz dilində bir məktəbi var idi: yunanlar - yunanca, suriyalılar - ərəbcə, slavyanlar - slavyan dilində [55].

20-ci əsrin əvvəllərində rusların Argentinaya mühacirəti xeyli artdı və Konstantin ata burada çox iş görmüşdü. O, burada çətinlik çəkən soydaşlarına dəstək oldu, onlara sığınacaq açdı, onları yedizdirdi və vətənlərinə qayıtmalarına kömək etdi. Eyni zamanda ərəbdilli pravoslav icması da böyüdü. 1914-cü ildə onlar Santyaqo del Esteroda Pravoslav kilsəsini açdılar, burada Antakya Patriarxı IV Qriqorinin (1906-1928) xeyir-duası ilə keşiş İbrahim İsa gəldi. 1917-ci ildə ərəblər tərəfindən ayrıca məbəd tikilmiş və onunla birlikdə məktəb açılmışdır. 1914-cü ildə Argentinaya gələn keşiş Simon Khouri Tukuman şəhərində yeni yaradılmış kilsədə xidmət edirdi. 1918-ci ilin mayında Kordobada Pravoslav kilsəsi yaradıldı. Buenos-Ayresdə ilk Antakya məbədi 1923-cü ildə açıldı. 1905-ci ilə qədər yunan icması o qədər əhəmiyyətli hala gəldi ki, Konstantinopol patriarxı onun üçün bir keşiş göndərdi, bir ev kilsəsi yaradıldı və 1928-ci ildə yunanlar Buenos-Ayresdə Məryəm Katedralini tikdilər [55].

1920-ci illərdə, vətəndaş müharibəsindən sonra, Rusiyadan Argentinaya mühacir axını başladı. 1926-cı ildə Buenos-Ayres Üçlük Kilsəsi Rus Pravoslav Kilsəsinin yurisdiksiyasına keçdi və bununla razılaşmayan ruslar Konstantinopol və Antakya Patriarxlığının kilsələrini ziyarət etməyə başladılar. Birinci və İkinci dünya müharibələri arasında çoxlu yeni rus kilsələri tikildi. Kilsələrdə məktəblər, kitabxanalar, nəşriyyatlar, qocalar evləri yaradıldı. Eyni zamanda, ərəbdilli pravoslavlar da oxşar işlərlə məşğul olurdular və bununla yanaşı, tərcümələr də edirdilər. Beləliklə, 1934-cü ildə Antakya Patriarxlığının Cənubi Amerika kilsələrinin dekanı arximandrit Migel Xaluf "Ruhani" kitabını nəşr etdi.

İkinci Dünya Müharibəsi hadisələri Argentinadakı rus pravoslav icmasının həyatında dönüş nöqtəsi oldu. Hitlerin SSRİ-yə hücumundan sonra baş keşiş Konstantin İzraztsov minbərdən bu aqressiyanı bəyəndiyini bildirərək, bunu "Rusiyanın bolşevizmdən azad edilməsinin" başlanğıcı hesab edirdi. Buna görə bir çox dindarlar onun icmasını tərk edərək Argentinada Moskva Patriarxlığının kilsələrini təşkil etmək xahişi ilə Aleut və Şimali Amerikanın Mitopoliti Veniaminə (Fedçenkov) müraciət etdilər. Bu tələbə cavab olaraq, Argentina vikariatı (vəkili) 1943-cü ildə yaradıldı, lakin dörd il ərzində, yepiskopun gəlişindən əvvəl, icma Buenos-Ayresdəki Böyük Şəhid Georgi Vikarius kilsəsində (Antioxiya Pravoslav Kilsəsi) dua etdi. İkinci Dünya Müharibəsindən sonra ata Konstantin İzraztsov Amerika Qırmızı Xaç Cəmiyyəti vasitəsilə köçkün rusların Cənubi Amerikaya getməsini təşkil etdi. 1948-ci ildə Ata Konstantinin xahişi ilə Argentina prezidenti Xuan Dominqo Peron 10.000 keçmiş Sovet vətəndaşının ölkəyə qəbulu haqqında fərman verdi.1947-ci ildə Argentinada yeni yaradılmış Argentina yeparxiyasına rəhbərlik edən Moskva Patriarxlığının yepiskopu Teodor Tekuçev tərəfindən idarə edilən ilk pravoslav yepiskop kafedrası yaradıldı. İki il sonra Argentinada Konstantinopol Patriarxlığının yepiskopu formalaşdı və 1956-cı ildə Antioxiya Patriarxlığının yepiskopu, həmçinin Rusiyadan kənarda Rus Pravoslav Kilsəsinin ilk hakim yepiskopu Buenos-Ayresdə məskunlaşdı.

1947-ci ildə yepiskop Teodorun gəlişindən sonra Annunsion Pariş yaradıldı və ən Müqəddəs Teotokos Müjdəsinin kiçik bir kilsəsi, indiki Rus Pravoslav Kilsəsinin Argentina yeparxiyasının kafedral kilsəsi tikildi. 1952-ci ildə Ata Konstantin İzraztsovun icmasının düşmənçilik hərəkətləri ucbatından Argentina hökuməti Vladika Teodoru ölkədən qovdu, Annunsion kilsəsini bağladı, hətta Moskva Patriarxlığının Rus Pravoslav Kilsəsinin fəaliyyətini qadağan edən fərman verdi. Bir neçə ay sonra dindarlar bu qadağaların ləğvinə nail oldular, məbəd yenidən açıldı və qeydiyyata alındı.

Cənubi Amerika qitəsindəki ən böyük rus icması Argentinada yerləşirdi və onun kilsə həyatının qüsursuz olduğunu söyləmək olmaz. İki yurisdiksiyaya bölünməklə yanaşı, heç bir yurisdiksiyaya tabe olmayan rus kilsələri var idi, həmçinin kahin çatışmazlığından istifadə edərək (bəzi kilsələrdə uzun illər xidmət göstərilmirdi) birləşmiş (uniat) katoliklər ruslar arasında öz prozelitizasiya missiyalarını təşkil etdilər. Buna baxmayaraq, bu işdə çox uğurlu olduqlarını söyləmək olmaz.

Yarım əsrdir ki, Moskva Patriarxlığının Argentina və Cənubi Amerika yeparxiyası həm parçalanmadan qayıdan icmalar hesabına, həm də yeni kilsələrin tikintisi hesabına durmadan böyüyür. 1972-ci ildə ilk argentinalı Deakon George Sançez böyüyən icmalara xidmət etmək üçün təyin edildi. 1988-ci ildə Rusiyanın Vəftizinin 1000 illik yubileyinin ildönümündə Buenos-Ayresdəki meydanlardan birinin adı Həvarilərə Bərabər Şahzadə Vladimirin şərəfinə dəyişdirildi və üzərində müqəddəsin bürünc abidəsi ucaldıldı.

Bu gündə Argentinada bir neçə pravoslav yeparxiyası və yurisdiksiyası var. Bunlar Antioxiya Patriarxlığı, Konstantinopol Patriarxlığı, Moskva Patriarxlığı və Rusiyadan kənarda Rus Pravoslav Kilsəsidir. Bundan əlavə, ölkədə Serb Pravoslav Kilsəsinin 4 kilsəsi, Rumıniya Pravoslav Kilsəsinin 1 kilsəsi, Amerikada pravoslav kilsəsinin də 2 kilsəsi var idi, lakin keşiş çatışmazlığı səbəbindən bağlanmaq məcburiyyətində qaldılar.

Bu gün Argentinada pravoslavlığın mövqeyi elə də ürəkaçan deyil. Bir çox yurisdiksiyalarda ümumi problem ruhanilərin kəskin çatışmazlığıdır. Yunan

kilsələrinin təxminən üçdə biri və Rus Pravoslav Kilsələrinin yarıdan çoxunun müntəzəm xidmətlər keçirmək imkanı yoxdur. 2002-ci il kəskinləşən ümumi yoxsulluq səbəbindən yalnız bir neçə kilsə keşişə dəstək verə bilir. Buna görə də, az sayda xidmət edən ata daima kilsələrə uzun məsafələr qət etməli və əlavə olaraq ailələrini dolandırmaq üçün bəzi dünyəvi işlərdə işləməli olurlar. Müəllim çatışmazlığı səbəbindən Yunanıstan Metropoliyası hələ də ölkədə seminariya aça bilmir, baxmayaraq ki, bunun üçün vəsait artıq yığılıb. Bazar günü məktəblərində müəllimlər çatışmır. Bir çox pravoslav ildə yalnız bir dəfə etiraf etməyə getmək və birlik qəbul etmək imkanı əldə edir.

Bütün çatışmazlıqlara baxmayaraq, müsbət məqamlar da özünü göstərir. Beləliklə, 1990-cı illərdə serb icmasının həyatı yaxşılaşdı, kilsə tikilib müqəddəsləşdirildi, yeni kilsələr açıldı. Həmçinin, Moskva Patriarxlığının Cənubi Amerika Yeparxiyasında hazırda iki yeni kilsə - Mar del Plata şəhərində kral şəhidlərinin şərəfinə kilsə və Ober şəhərində Moskva Patriarxı Müqəddəs Tixon adına kilsə tikilir.

Argentinada mövcud olan dini azlıqlardan digəri isə **hinduizm** dininin üzvləridir.Uzun illər Hindistan Britaniya imperiyasının tərkib hissəsi olmasına baxmayaraq, Argentina heç bir zaman Britaniya imperiyasına daxil olmamışdır. Buna görə də Argentinaya müsəlmanlardan(əsasən Afrika müsəlmanları) fərqli olaraq, hindlilər buraya qul kimi gəlməmişdirlər. Lakin XX əsrin əvvəllərində hindlilərin bəziləri özlərində cəsarət taparaq, britaniyalıların sahib olduqları dəmir yolları, Britaniya və ya Britaniya-Argentina birgə plantasiyalarda işləmək üçün buraya gəlmişdirlər. Onlardan çoxu Salta və Jujuy əyalətinə köçərək, oradakı yerli xanımlarla ailə qurmuş və fermerlik etmişdirlər. Onlar hətta Argentina vətəndaşlığını qəbul edərək, özlərinə də ispan adları götürüblər. Bu insanların növbəti nəsil nümayəndələri digər tacir,  hüquqşünas, bankir, tibb işçisi kimi ixtisaslara da yiyələniblər. Argentinada məskunlaşan hindlilərin bir çoxu öz din və adət-ənənələrinə sadiq qalıblar. Salta əyalətinin Rozario de la Fronteria şəhərində Qrundvarilər (siqhlərin məclis və ibadət yeri) inşa etmişdirlər [26]. Onlardan çoxu ayudvera, yoqa, hind klassik musiqisi və

hind dilinə sadiqdirlər. Onlar şimal əyalətlərində hindu cəmiyyətlərini təsis etmiş və hind festivallarını qeyd etmək üçün mərasimlər təşkil edirlər. Buna baxmayaraq ölkədə onlar arasında koordinasiya məsələsi o qədər də inkişaf etməmişdir. Buenos Ayresdə yaşayan hindlilərin çoxu iş adamı, həkim, maliyyə sahəsində çalışan və ya transmilli koorporasiyalarda çalışırlar. Onlardan çoxu mümkün olduğu halda Hindistan vətəndaşlığını da saxlayırlar. Argentinada hindlilərin sayı az olduğu üçün onların ölkə əhalisinə təsiri elə də çox deyil.

Ölkədəki digər dini azlıq nümayəndələri isə **buddizm** dininə sitayiş edirlər.1980-ci illərin əvvəllərindən Argentinada buddizm yayılmağa başlayır. Çinli buddist immiqrantlar ilk Buddist məbədini 1986-cı ildə təsis etmişdilər və daha sonra koreyalı buddist immiqrantlar da öz məbədini qurmuşdular. O vaxtdan bəri bir çox qruplar təlimlər keçirirlər, onlardan bəziləri Yaponiyanın ən məşhur Soto ənənəsinə, bəziləri isə meditasiya təcrübəsi üçün bir çox Tibet institutlarına (Mahamudra, Dzog Chen, Lam Rim) əsaslanır [53]. Hal-hazırda bir çox Buddist mərkəzləri inkişaf edərək geniş şəkildə yayılır. Buenos-Ayresdə təxminən 5.000 immiqrant buddist və 25.000 buddizmi qəbul edən əhali yaşayır. Bir çox təşkilat Buddanın qalıqlarını Argentinaya gətirmək üçün əməkdaşlıq etdi. Bu tədbir Taylandın Buenos-Ayresdəki Kral Səfirliyi tərəfindən dəstəklənmişdi. Argentinada buddizmin yayılmasına töhfə verən alimlər arasında kitabları bir çox tələbələrə və geniş ictimaiyyətə qapı açan Samuel Volpin və uzun illər buddizmi araşdıran və tədqiq edən, kitabları bir çox dillərə tərcümə edilmiş Karmen Draqonetti və Fernando Toladır.

Argentinada həmçinin 5 minə yaxın ardıcılı olan təxminən yeddi Yapon Zen Buddizm İnstitutu var. Onlardan biri olan Zen Deşimaru Buddist Assosiasiyası 1995-ci ildə yaradılmışdır və Soto Zen keşişi, Argentina və digər Latın Amerikası ölkələrində missionerlik işləri aparan Stefan “Kosen” Tibo tərəfindən idarə olunur. [42]. 1990-cı illərin ortalarında o, Argentinaya səfər etməyə, meditasiya çəkilişlərinə rəhbərlik etməyə və dojolar qurmağa başladı. Təşkilat ölkədəki ən böyük Zen ordenidir, ölkə daxilində təxminən on dojos və Kordoba əyalətindəki Uritorko dağında yerləşən Şobogenci məbədidir. Tzonq Kuan Məbədi 1988-ci ildə Tayvanda Buddist

icmasının dəstəyi ilə Master Pu Hsien tərəfindən təsis edilib, məbəd Montañeses 2175 küçəsində Belgrano bölgəsində yerləşir və Braziliyada filial məbədi var. Hazırkı abbat (rahib) Master Zhi Handır və məbəd də Argentinadakı Çin Buddist Assosiasiyasına və Bodhiyana Fonduna bağlıdır. Tayvandan olan Fo Guang Shan Ordeninin 1992-ci ildən Argentinada "Templo Budista Fo Guang Shan" adlı filial məbədi də var və məbəd meditasiya, döyüş sənətləri, yoqa kursları təklif edir və müntəzəm olaraq vegetarian mətbəxi seminarlarına ev sahibliyi edir. (Historia del Templo Tzong Kuan)[tsonguan] Eduardo Torres Astigueta tərəfindən qurulan Vipassana meditasiya icması var, o, "Vipassana Buenos Ayres" kimi tanınır və onlar Palermo və Floresdə həftəlik təcrübələr keçirirlər. 2005-ci ildə Argentina Vipassana Assosiasiyası Buenos-Ayres əyalətindəki Brandsen şəhərinin kənarında yerləşən bir torpaq sahəsi aldı və 120 tələbə tutumu olan "Dhamma Xoşbəxtliyini Vermək" mənasını verən Dhamma Sukhadā Mərkəzini tikdi. Həmçinin, Tibet Buddizmində ən yüksək ruhani lider sayılan XIV Dalay Lama ilk dəfə 2006-cı ildə,ikincisi 2011-ci ildə olmaqlaiki dəfə Buenos-Ayresə səfər edib [21] .

Argentinada ən önəmli yer tutan və sayca çox olan dini azlıqlardan digəri isə isə **islamdır.** Dinlə bağlı dəqiq statistika mövcud olmasa da (milli siyahıyaalma dini məlumat tələb etmədiyinə görə). Ölkədə mövcud olan müsəlman icması Latın Amerikasının ən böyük dini icması hesab edilir. Əslində, Argentinada mövcud olan və yaşayan müsəlmanların sayı dəqiq bilinmir, bunun əsas səbəbi əhalinin siyahıya alınması zamanı onların hansı dinə malik olması ilə bağlı sorğunun keçirilməməsi idi, lakin təqribi hesablamalara görə, müsəlmanlar Argentina əhalisinin 1,5 %-ni (bu da təqribən 1 milyon nəfər deməkdir) təşkil edir [31]. Müsəlmanlar Argentiyana 1870-ci ildə Suriyadan, Livandan və Fələstindən gəliblər.

XV əsrdə Amerika qitəsi kəşf olunandan sonra avropalılar müsəlmanları bu regionda qul kimi istifadə etdilər. Belə ki, İslam ölkələrindən olan qulları işğalçılar Şimaldan Cənuba gətirmişdir. Bu qullar, əsasən, Braziliya, Venesuela, Kolumbiya və Karib ölkələrində məskunlaşıblar. Ayrı-seçkiliyə məruz qalan qulların böyük əksəriyyəti müsəlman idi. Buna baxmayaraq, müsəlman qullar edam cəzası qorxusuna

görə öz dinlərindən dönmək məcburiyyətində qalıblar. Bu hadisə belə, islam dininin Latın Amerikasında tədricən yayılmasının qarşısını ala bilməyib.

XVII əsrin sonlarına doğru qulların azad olunması və çoxunun bu torpaqlarda məskunlaşması, bundan əlavə Hindistan və Pakistandan da miqrasiya dalğasını nəzərə almaqla, bu regiondan müsəlmanların sayında nəzərəçarpacaq artım hiss edildi. Bir sıra sənədlərə əsasən 1850-1860-cı illər ərzində Amerika torpaqlarına müsəlmanların növbəti miqrasiya dalğası baş vermişdir. Onların çoxu Suriya və Livandan gəlmiş, əsasən, Argentina, Braziliya, Venesuela və Kolumbiyada məskunlaşmışlar. XX əsrdə də Argentinaya Suriya və Livandan miqrantların gəlişi davam edirdi. Belə güman edilir ki, bu gün 3,5 milyon argentinalı ərəb əsillidir [37].

Argentina müsəlmanları ölkədə adi bir həyat şəraiti yaşayırlar, ümumilikdə onlar xoşniyyətli, düzgün və vicdanlı insan kimi tanınırlar və Argentina cəmiyyətinə inteqrasiya ediblər. Argentinalılar müsəlmanların məsuliyyətli və anlayışı, etibar edilə biləcək insan olduqlarını söyləyirlər. Müsəlmanların bir çoxu islam birliklərinin, mərkəzlərinin, məscid və s. təsis edilməsi və azad ibadət etmək üçün bir yerdə toplaşırlar. Argentinada islam dinini qəbul edənlərin sayında cüzi də olsa artım hiss olunmaqdadır, daxillərində mənəvi boşluq hesab edən insanlar islamda bütünlük tapdıqlarını qeyd edirlər. İslam haqqında ispan dilində kitablar nəşr olunur, Həcc ziyarətini həyata keçirən argentinalıların da sayı ötən illərlə müqayisədə artmaqdadır [8].

Buenos Ayresin mərkəzində 1989-cu ildə yerli müsəlmanlar tərəfindən inşa edilmiş gözəl bir məscid var. Bundan əlavə, şəhərin digər ərazilərində, şəhərlərdə və fərqli regionlarında, xüsusilə də Braziliya, Argentina və Paraqvay sərhədlərində yerləşən ərazilərdə məscidlər mövcuddur. Argentina Latın Amerikası ölkələri sırasında islam dəyərlərinin yüksələn xətlə inkişaf edən ölkələrdən biridir. Səudiyyə Ərəbistanından gələn maliyyə yardımı hesabına daha çox məscidlər, mədəni və ictimai tədbirlər keçirilməsi üçün binalar tikilirdi. Ölkədə 9 islam mərkəzi fəaliyyət göstərir. Daha bir maraqlı fakt isə, Argentinanı 1989-1999-cu illərdə idarə etmiş, ölkənin

keçmiş prezidenti Karlos Menemin müsəlman əsilli olmasıdır. Belə ki, onun valideynləri XIX əsrin sonunda Suriyadan Argentinaya köç ediblər. Müsəlman ailəsində böyüyüb tərbiyə alan, hüquq təhsilinə yiyələnmiş və gənc yaşlarından siyasətə qoşulan Menem xristian dinini qəbul edir. Bunun əsas səbəbi ölkə konstitusiyasının tələbinə əsasən prezident və vitse-prezident olmaq istəyən şəxslər mütləq katolik olmalı idi. 1989-cu ildə hakimiyyətə gəlmiş Menemin şəxsi təşəbbüsü əsasında 1994-cü ildə ölkədə konstitusiyaya dəyişiklik və əlavələr üçün referendum keçirilir, nəticədə prezident, vitse-prezident olmaq üçün katolilik olmaq tələbi aradan qaldırılır.

Buenos Ayresdə 1982-2005-ci illərdə Səudiyyə Ərəbistanı kralı olmuş kral Fahdanın adına İslam mədəniyyət mərkəzi fəaliyyət göstərir. Onun ərazisində Cənubi Amerikanın ən böyük məscidi yerləşir. Onun inşası kral Fahdanın dəstəyi ilə 1996-cı ildə bitmişdir. 20000 $m^2$ ərazidə inşa edilən məscidin tikilməsi üçün əslində 34000 $m^2$ ərazi verilmişdir. Bu qərar 1992-ci ildə prezident Karlos Menemin Səudiyyə Ərəbistanına səfərindən sonra verilib. Layihənin icrası üçün 30 milyon dollar pul ayrılıb, burada məsciddən başqa kitabxana, iki məktəb və parkın inşası planı var idi. Ümumiyyətlə isə, məhz Karlos Menem hakimiyyətə gələndən sonra Argentinanın müsəlman ölkələrlə münasibəti daha da möhkəmlənmiş və yüksələn xətlə inkişaf etmişdir. Menemin hakimiyyəti illərində Türkiyə ilə də münasibətlərə önəm verilmişdir.

Qeyd etdiyimiz kimi, Argentina Latın Amerikasında ən böyük müsəlman icmasına malik ölkədir. Baş qərərgahı Argentinada yerləşən Latın Amerikasının İslam Təşkilatı (LAİT) Cənubi Amerikanın ən fəal islam təşkilatıdır. Bu təşkilat regionda yaşayan müsəlmanları birləşdirir. Lakin, bütün bu müsbət hallarla yanaşı Argentinada müsəlmanları qarşısında duran çətinliklər və islam dininin geniş yayılmamasının səbəbləri də mövcuddur. Bunlara misal olaraq, müsəlmanların özlərinin islam mədəniyyəti və dini haqqında kifayət qədər biliyin olmaması; bir sıra insanların müntəzəm olmayan dini təcrübəsi, həmçinin islam kimliyini qoruya bilməyən insanların sayının çox olması. Onlar yaşadıqları cəmiyyətin fərqli düşüncəyə malik

fərdləri arasında daha yaxşı qəbul olunmaqları və bu cəmiyyətə adaptasiya oluna bilmədiklərini düşünərək öz dini inanc və mədəniyyətlərindən imtina edirlər; ispan dilini bilən və bu ölkənin mədəniyyətinə, adət-ənənəsinə bələd olan dini yayanların sayının az olması; islam dini haqqında biliklər əldə ediləcək məktəb və müəllimlərin çatışmazlığı; ispan dilində islama dair material - kitab, audio və video çatışmazlığı; islam təsisatlarını idarə edənlər arasında əlaqələrin kifayət qədər yaxşı olmaması; bütün səviyyələrdə - şəxsi, ailə, təsisat və təşkilat səviyyəsində müsəlmanlar arasında ünsiyyətin kifayət qədər yaxşı olmaması; dini konfrans və tədbirlərin mütəmadi keçirilməməsi, din xadimlərinin, din alimlərinin görüşünün gec-gec keçirilməsi; kütləvi informasiya vasitələri ilə əlaqə qurmaq üçün təhsilli şəxslərin olmaması; islam ölkələrinin KİV-lərinin Argentina KİV-ləri ilə demək olar ki, əlaqələrinin olmaması. Son olaraq, qeyd edək ki, Latın Amerikası hər üç səməvi dinin - musəvi, xristian və müsəlmanların nümayəndələrinin sülh və əmin-amanlıq içində yaşadığı bir regiondur. Çünki, hər üç dinin nümayəndələri dəfələrlə bəyan etmişdirlər ki, hər bir dinin nümayəndələri bu regiona gələrkən, çox əziyyətli, əzablı yollar keçmiş və bu gün hər üç dinin təbliğ etdiyi həqiqi həmrəylik, dostluq və sülh şəraitində yaşayırlar.

Argentinada digər dini azlıq isə **iudazimdir.**1862-ci ildə Buenos-Ayresdə cəmi 10 yəhudi ailəsi yaşayırdısa, 1872-ci ildə bu 30, 1882-ci ildə isə bu say 55-ə qalxdı. Rusiyada 1860-cı il hadisələri artıq 1891-ci ildə minlərlə yəhudinin Moskvadan qovulmasına səbəb oldu, bu da Avropada mövcud yəhudi xeyriyyə təşkilatının qovulmuş yəhudiləri Argentinada yerləşdirmək təşəbbüsün irəli sürdü. 1889-cu ildə 130 yəhudi ailəsini (Rusiyadan olan 800 yəhudi) gətirən gəmi Buenos-Ayresə gəldi və burada ilk dəfə yəhudi kənd təsərrüfatı müstəmləkəsini qurdu. Hal-hazırda, Argentinada təxminən 180.500 yəhudi və onların əksəriyyəti Buenos-Ayres, Kordoba və Rosario kimi böyük şəhərlərdə məskunlaşmışlar [23].

Erkən avropa yəhudiləri ilk öncə Pampaslarda məskunlaşdılar. Maliyyə yardımını isə onlar fransız milyoneri, xeyriyyəçi və sionist Morisa de Qirşa göstərdi. Qrişanın cəhdləri nəticəsində təqribən 30 min yəhudi 1922-ci ildə Argentinaya gəldi, lakin bunlar daha sonra məhz elə Avropaya qayıtdılar [4]. Çünki bu zaman Argentina

iqtisadi böhran içində idi, Argentina bu miqrantları qəbul edə və onları kənd təsərrüfatı işlərinə cəlb edə bilməzdi. Mərakeşdən gələn yəhudilər bu baxımdan daha uğurlu bir köç həyata keçirdilər və kiçik qruplarla Argentinanın şəhərlərində məskunlaşdılar. Onların argentina cəmiyyətinə inteqrasiyasının başlıca səbəbi ispan dilini bilməkləri idi. XIX əsrin sonlarında başlayaraq, Argentinaya Şərqi Avropadan fərqli siyasi, mədəni və sosial qrupları təmsil edən ziyalı yəhudilər köç etməyə başladı. Onlar 1900-cu ildə Buenos-Ayresdə Yəhudi işçi birliyi hərəkatı, maddi vəziyyəti pis olanlar üçün xeyriyyə mətbəxi, məşğulluq idarələri, bir sıra qəzet və teatr kollektivi təsis etdilər. Qeyd etmək lazımdır ki, Argentina Latın Amerikasında Almaniya ilə diplomatik və iqtisadi əlaqə saxlayan yeganə dövlət idi. Argentina hökuməti Almaniya və ona qonşu olan ölkələrdə gələn yəhudi qaçqınları qəbul etmirdi. Argentinanın Avropada olan bütün səfirliklərindən onlara viza verilməməsi haqqında tapşırıq verilmişdir. Məhz bu səbəbdən Argentinaya yəhudilər Boliviya, Çili, Paraqvay, Uruqvaydan gəlirdilər. 1933-1945-ci illərdə 40 min yəhudi Latın Amerikası ölkələrində ən çox Argentinaya gəlmişdir. Bu zaman Venesuela, Kolumbia, Braziliya üçün ölkəyə giriş üçün katolikliyi qəbul etməyi təklif etdilər. Meksika isə 1942-ci ilin aprel ayına kimi yəhudi qaçqınları qəbul etmədi. Yəhudi qaçqınları yalnız Ekvador, Dominikan Respublikası, Boliviya qəbul edirdi.

Latın Amerikası bu illərdə Avropadan bacardıqlarından az yəhudi qəbul etmişdirlər. Almaniya ilə Argentina arasında sıx əlaqələr meydana gəlməyə başladı. İki ölkə arasında sıx əlaqələr səbəbindən Holokost zamanı Argentinanın yəhudi icması çox gərgin vəziyyətdə idi və onlar yalnız Fələstində yerləşən qaçqınlar üçün maddi yardım yığmaqla məşğul idilər və bu zaman onlar soyqrım məsələsindən heç bəhs etmirdilər. Peron hakimiyyətə gəldikdən sonra məktəblərdə katolikliyin təlimi ilə bağlı dərslərin keçirilməsinə göstəriş vermiş və həmçinin Almaniyadan qaçan nasistlərə ölkəsində sığınacaq verdi. Hesablamalara əsasən 30-40 min alman Argentinaya gəlmiş, onların böyük hissəsi isə alman nasistləri idi. Argentinaya nasistlərin gəlməsi yəhudilərə qarşı terror aktlarının baş verməsinə səbəb oldu. Bütün bunlara baxmayaraq, Peron Latın Amerikasında 1949-cu ildə İsraili tanıyan və onunla ticarət əlaqələri quran ilk dövlət

başçısı idi. 1978-1982-ci il baş verən hərbi çevriliş nəticəsində hərbi xunta idarəetməni ələ alır və çoxlu sayda yəhudi itkin düşür. Xuntanın hakimiyyəti zamanı israilli diplomatlar mürtəd yəhudiləri ölkədə çıxarda bildi. Belə ki, Argentina qanunlarına əsasən əgər həbsxanada yatan cinayətkarı qəbul edən dövlət olsa, o halda bu cinayətkarı qəbul edə bilər. İsrail diplomatları da bu qanundan istifadə etdilər.

1992-ci ildə Buenos-Ayresdə İsrail səfirliyinin qarşısında terror aktı baş verdi və nəticdə 29 insan həlak oldu. 1994-cü ildə isə Buenos-Ayresdə avtomobilə qoyulmuş partlayıcı qurğunun partlaması nəticəsində 85 nəfər həlak olmuş, 200-dən çox insan yaralanmışdır. Terror aktının səbəbkarı İrandan olan, lakin Argentinada faəliyyət göstərən silahlı ekstrimist qruplar idi. Partlayış nəticəsində diasporanın ən mühüm kitabxanası məhv edilmişdir. Bu kitabxanada yaşı ən azı 50 il olan, Holokost zamanı xilas edilmə bilən ivrit dilində əlyazma kitablar kimi dəyərli məlumatlar var idi. Bu kitablarda Şərqi Avropa yəhudi mədəniyyətinin necə məhv olması yazılmışdır. Terrror aktı zamanı həmçinin yəhudilərin Argentina və Latın Amerikasına miqrasiya etmələrinə dair məlumatları özündə ehtiva edən mərkəzi arxiv də məhv edildi. Terror hadisəsi parlamenti məcbur etdi ki, antisemitzm və irqçiliyə dair qanun qəbul etsin. Bundan əlavə, Argentinada kiçik milliyyətçi qruplar hələ də fəaliyyət göstərirdi. Bu hadisədən sonra Argentinada mövcud olan yəhudi müəssisələrinə çox ciddi nəzarət olunur.

Argentinada əsasən aşkinazlardan olan 250 mindən çox yəhudi yaşayır, onlar əsasən Buenos-Ayresdə yaşayırlar və Latın Amerikasında ən çox burada məskunlaşıblar. Argentinada yəhudilərin 15%-i isə sefardilərdir. Onlar əsasən Türkiyə, İspaniya, Suriya və Şimali Afrikadan köç edənlərdir. Argentina hökuməti yəhudilərə rəsmi olaraq, Poş xa Şana, Yom-Kimppur kimi yəhudilərin müqəddəs bayramlarında, həmçinin Pesaxın ilk iki günü və son iki günü işləməməyə icazə verir. Argentinada olan sinaqoqların böyük hissəsi ortodoksdur, amma əslində isə onların çoxu islahat tərəfdarıdır. Agentinada çoxlu sinaqoq, yəhudi təşkilatı, 70-ə yaxın yəhudi təhsil mərkəzi fəaliyyət göstərir. 2000-ci ildə Argentinada Holokostu xatırladan bir park

açılmışdır. Bu da onu göstərir ki, iudazim cəmiyyəti Argentinada kifayət qədər fəaldır və həmçinin dövlət tərəfindən onlara qarşı xüsusi diqqət ayrılır.

# NƏTİCƏ

Dinin tarix boyu mədəniyyətin , sivilizasiyanın inkişafında rolu danılmazdır. Araşdırma və təhlillər göstərdi ki, Argentinanın dini mənzərəsi olduqca mürəkkəbdir. Bu mürəkkəblik həm dinin özündən, həm də Argentinada tarix boyu baş verən iqtisadi-siyasi proseslərdən qaynaqlanır.

Araşdırma nəticəsi kimi qeyd edə bilərik ki, indiki Argentina Respublikasına daxil olan ərazilərdə katolik kilsənin təsiri keçmişdə çox böyük olmuşdur və bu təsir özünü indiki dövrdə də göstərir. Hal-hazırda ölkədə ibadət, kostitusiya azadlığı ilə təmin olunub. Konstitusiya ölkə üçün rəsmi bir inanc tətbiq etməyib, lakin katolikə fərqli bir status verir. Hökumət həmçinin əsasən Roma Katolik Kilsəsini maliyyələşdirir və mövcud dini azadlıqdan başqa katolik olmayan bir şəxsin prezident olmasını çətinləşdirən bəzi keçmişdən qalan ənənələr və qaydalar var.

Roma katolik kilsəsi 16-cı əsrdən 19-cu əsrə qədər İspan müstəmləkəçiliyi dövründə indiki Argentina bölgəsində öz nüfuzunu məhkəmləndirmişdi. 1835-1852-ci illərdə prezident Xuan Mauel Rosasa qədər kilsə əsas aparıcı qüvvə idi. Onun prezidentliyi dövründə islahatlar həyata keçirildi. Bu islahatlar nəticəsində dövlət və kilsə arasında münasibətlər yenidən nəzərdən keçirildi və bu bəzi kilsə hüqquqlarının əlindən alınmasının başlağıcı oldu. 1853-cü ildən sonra katolikliyin ziyalılar arasında nəzərəçarpacaq dərəcədə zəifləməsi, liberal meyllərin güclənməsi, Argentinaya yeni gələn miqrantlar arasında sosialist və anarxist ideyaların və dini azadlığın tərəfdarlarının çoxalması və s. amillərin katolik kiləsi üzərinə böyük təsiri olduğunu deyə bilərik. Xulia A.Rokanın dini tolerantlığı təbliğ edən bir sıra qanunları-məktəblərdə katolik katexizminin tədrisinə məhdudiyyətlərin qoyulması, dini mərasim olmadan vətəndaş nigahının qanuni nigah olması, kilsə qəbiristanlıqlarına dövlət nəzarətinin qurulması və s. qəbul etməsi dexristianlaşma prosesini sürətləndirmişdi.

Argentinada prezident Peronun dövrü xüsusi əhəmiyyət kəsb edir. Onun dövründə Katolik kilsəsi ciddi dəyişikliklərdən keçmişdir. Peronun hakimiyyətinin ilk illərində kilsəyə bəzi imtiyazlar verilsə də, dövlət və kilsə arasında yumşalmalar uzun sürmədi.

1952-ci ildən sonra Peron kilsəyə qarşı bir sıra islahatlar keçirdi: məktəblərdə dini tədris dayandırıldı, bəzi katolik təşkilatlar ləğv edildi, katolik təhsil müəssisələrinə dövlət subsidiyaları dayandırıldı və ən əsası parlamentdə kilsənin dövlətdən ayrılması haqqında qanun qəbul edildi. Artıq 20-ci əsrdən sonra kilsə əsas qüvvə olmaqdan çıxmağa başlamışdı.

Dini tarixi boyu Atgentina Katoklikliyin hakim mövqeyi ilə seçilib. 1980-cı illərdən sonra Argentinada dini sahadə tranformasiya prosesini yaşadı. Getdikcə daha çox dini seçimlər ortaya çıxdı və qeyri-katolik seçimləri artdı. Dini sahədə seçimlərin artmasına baxmayaraq Katolik kilsə dünyada ən dominant dini icmadır və katoliklik bu günə kimi ən çox qəbul edilən dindir. Protestantlıq dini Argentinada 18-ci əsrdə meydana gəlmişdir, 20-ci əsrin 80-cı illərindən sonra isə çoxalmağa başlamışdır. Protestantlığın meydana gəlməsi ingilis metodistləri,şotland presviterianları, alman və skandinav lüteranları, alaman-rus baptistləri və digərlərinin gəlməsi ilə bağlı olmuşdur. 1800-cü illərin sonuna doğru isə protestantlığı yaymaq cəhtləri ispandilli olan əhali arasında da çox yayılmağa başlamışdı. Ümumi əhalinin təxminən 2%-i protestantlar təşkil edir. Hazırda Pentekostalizm kimi digər dini seçimlər sayca genişlənsə də, onların ictimai tanınması hələ nisbətən aşağıdır. Katolik kilsəsi ilə müqayisədə qanuniliyin az olmasına görə onlar dini sahədə daha az qəbul edilir.

Argentinada ilk pravoslav xristianlar1860-cı illərdə gəlməyə başlamışdılar. Cənubi Amerikada ən böyük rus icması burada yerləşirdi. Bu gün də Argentinada bir neçə pravoslav yuridiksiyası və yeparxiyası mövcuddur.

1980-cı illərin əvvəllərindən isə Argentinada buddizm yayılmağa başlamışdır. Hal-hazırda da bir çox Buddist Mərkəzləri geniş şəkildə yayılaraq inkişaf edir.

1870-ci llərdə Livandan, Fələstindən, Suriyadan müsəlmanlar Argentinaya gəlmişlər və hazırda Argentina əhalisinin təxminən 1.5%--ni təşkil edir. Latın Amerikasının ən böyük müsəlman dini icması Argentinada yerləşir. Baş qərargahı Argentinada olan Latın Amerikasının İslam Təşkilatı Cənubi Amerikanın ən aktiv islam təşkilatıdır. Təşkilat regionda olan müsəlmanları birləşdirir.

Buenos-Ayresdə 1862-ci ildə ancaq 10 yəhudi ailəsi yaşayırdı. Sonralar isə sayları artmışdı və indi Argentinada çoxlu yəhudi təşkilatı, sinaqoq, 70-ə qədər yəhudi təhsil mərkəzi mövcuddur.

Bu gün Argentinada katoliklər ilə yanaşı, protestantlar, yəhudilər, müsəlmanlar, buddistlər və başqa dinə məsub əhali yaşayır. Argentina dini və irqi baxımından böyük irəliləyişlərə nail olub. 1983-cü ildə diktatura rejimi sonra çatdıqdan sonra prezident Raul Alfonsin insan haqlarını əsas prioritet hesab etdi və bir çox yəhudini yüksək vəzifələrə təyin etdi. Prezident Carlos Menem də bu islahatları daha irəli apardı, vitse-prezidentin və prezidentin katolik olması tələbini ləğv edən konstitusiya dəyişikliyini təsdiq etmişdi .

Argentina dünyada fərqli sivilizasiyaların kəsişdiyi, dinlərarası qarşılıqlı etimad mühitinn olduğu bir ölkədir. Çoxmillətli və çoxkonfessiyalı Argentinada dini tolerantlığın inkişafina ölkənin yerləşdiyi coğrafi ərazi və əhalinin etnik, dini tərkibi böyük təsir göstərir. Argentinada dinə əsaslanan nə dini dözümsüzlük, nə də təqib yoxdur. Bu baxımdan Argentinanın Dinlərarası İnstitutunun fəaliyyəti təqdirə layiqdir. Onun əsas missiyası müxtəlif inanclı insanların anlaşmasını, sülh içində birgə yaşayışı, mədəniyyətlərin qarşılaşmasını təşviq etməkdir. Bundan başqa Argentinada fərqli dini ənənələr arasında azadlığı, dialoqu təşviq edən çoxlu institutlar da var. Beləliklə, Argentinanın bütün məzhəblərə, dinlərə, inanclara dözümlü yanaşması, din sahəsində aktiv siyasət həyata beynəlxalq aləmdə yüksək qiymətləndirilir, bu təqdirəlayiqdir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

**Azərbaycan dilində:**

1. Ağakişiyeva G.R. Argentinanın coğrafiyası.Bakı, 2018, 213 s.
2. Şahmuradov A. Argentinanın etnoqrafiyası. Bakı, 2019, 129 s.

**İngilis dilində:**

3. American Waldensian Society. (n.d.). Retrieved from www.waldensian.org
4. Argentina Virtual Jewish History Tour. (2021). Jewish Virtual Library.
5. Argentina, language and culture. (n.d.). Retrieved from www.britannica.com
6. Arlettaz, F. (2019). The Legal Status of Religious Groups in Argentina. . Journal of Law, Religion and State.
7. Bender, H. S. (2020). mennonites in argentina. gameo.org.
8. Brieger, P. (2002). The Muslim community in Argentina. academi.eu.
9. Caraman, P. (1975). The lost paradise: The Jesuit Republic in South America .
10. Chicago, A. o. (n.d.). What are Ecumenical Relations?
11. Curbelo, N. (2018). The History of the Mormons in Argentina .
12. Dunne, P. M. (1945). Church and State in Argentina. . The Review of Politics Vol. 7, No. 4 , , 395-417.
13. Dussel, E. (1992). The Church in Latin America 1492-1992 .
14. Encyclopedia., N. C. (2022). Argentina, The Catholic Church in. Retrieved from Encyclopedia.com: https://www.encyclopedia.com/religion/encyclopedias-almanacs-transcripts-and-maps/argentina-catholic-church
15. Epelman, C. (2016). “Interreligious coexistence is possible and Argentina is proof of this”.
16. Evangelical Church of the Disciples of Christ in Argentina. (n.d.). Retrieved from www.oikoumene.org

17. Evangelical Methodist Church of Argentina.(n.d.).Retrieved from www.oikoumene.org
18. Foxnews. (2015). Argentine Jews praise Pope Francis for interfaith dialogue. foxnews.com.
19. Fraser, F. K. (2015). Jews and Arabs in Argentina: A Study of the Integration,Interactions and Ethnic Identification of Ar actions and Ethnic Identification of Argentina gentina's Migrant Groups. Trinity College.
20. Hierarchs of the three Churches in Argentina oppose icon desecration on pretence of 'actual art. (2022). Retrieved from Patriarchia.ru.
21. His Holiness Concludes His Argentina Visit. (2006). www.buddhistchannel.tv
22. Hoffman, L. (2018). Interfaith Dialog. Encyclopedia of Psychology and Religion.
23. Jewishdatabank. (2021). www.jewishdatabank.org.
24. L. Edward Shuck, J. (1949). . Church and State in Argentina. . The Western Political Quarterly, 527-544.
25. MÉNDEZ, J. (1985). Church-State Relations in Argentina in the Twentieth Century: A Case Study of the Thirty-second International Eucharistic Congress. . Journal of Church and State,, 223-243 .
26. Other countries of Central and South America . (2017). indiandiaspora .nic.in
27. PADILLA, N. (2015). Religion and the Secular State in Argentina. Servicio de Publicaciones de la Facultad de Derecho, Universidad Complutense , , 75-91.
28. Religious Beliefs and Spirituality in Argentina. (2021). Retrieved from https://www.studycountry.com/.
29. Sarreal, J. (2014). The Guaraní and Their Missions: A Socioeconomic History . Stanford University Press; 1st edition .
30. St. John The Baptist Anglican Cathedral. (n.d.). Retrieved from catedralanglicana.org.ar
31. State, U. D. (2010). International Religious Freedom Report 2010.
32. Stewart, J. (2017). Catholicism in Argentina. Berkley Center .

33. Tarnopolsky, N. (2022). The immigrant neighborhood—and interfaith friendships—that made Pope Francis. americamagazine.org.
34. The Church as a community must practice love. (2022). Retrieved from www.caritas.org
35. The Church of Jesus Christ of Latter-day Saints. (n.d.). Retrieved from newsroom.churchofjesuschrist.org
36. the living church serving the one body of christ. (n.d.). Retrieved from livingchurch.org
37. Valisi, K. (2021). The Arab and Islamic world in Argentina.
38. vaticannews.va. (2019). Retrieved from Pope meets Argentine Interreligious Dialogue Institute.
39. Velcamp, T. A. (1997). The historiography of Arab immigration to Argentina: The intersection of the imaginary and the real country. Immigrants & Minorities , 227-248.
40. Vives, J. M. (n.d.). Religious freedom without equality? Religious minorities and the establishment of religion in Argentina. Journal of Law and Religion, 172-191.

**İspan dilində:**

41. Archivum Revista de la Junta de Historia Eclesiástica Argentina. (1944).
42. Association, Z. D. (n.d.). Shobogenji zen temple.
43. Bruno, C. (1972). Historia de la Iglesia en la Argentina. Editorial Don Bosco.
44. dialogointerreligioso.org. (n.d.). Retrieved from instituto de dialogo interreligioso
45. Diario26. (2012). El gobernador de Salta reglamentó procedimientos para abortos no punibles.
46. Historia del Templo Tzong Kuan. (n.d.). http://tzongkuan.org/20-2/.
47. Mauro, D. (n.d.). Catolicismo y secularización en Argentina y España (siglo XX). 2001.
48. Menonitas en La Pampa. (2021). http://www.soydetoay.com.ar/.

49. Padilla, N. (2015). Religion and the Secular State in Argentina. Servicio de Publicaciones de la Facultad de Derecho, Universidad Complutense , , 75-91.
50. Pou, L. L. (2021). Argentina será sede del IV Congreso Mundial de Diálogo Intercultural e Interreligioso.
51. Pugliese, F. (2019). Buenos Aires es la ciudad del encuentro y del diálogo interreligioso. infobae.
52. Siwak, P. (1991). 500 años de evangelización americana. Ediciones del Encuentro.
53. Vipassana, la Meditación del desarrollo de la Atención Plena (Mindfulness). (n.d.). https://www.vipassanabuenosaires.com/.
54. Zuretti, J. C. (1945). Historia Eclesiástica Argentina. Cambridge University Press.

**Rus dilində:**

55. Maksimov, Y. (2007). ПРАВОСЛАВИЕ В АРГЕНТИНЕ.
56. Православная энциклопедия, П. (2009). АРГЕНТИНА.